QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 232 (5463) 19 **dekabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev 2017-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib




Səh 2

**Prezident İlham Əliyev Dünya Bankının nümayəndə heyətini qəbul edib**



→ 5

**Şərq ilə Qərb dünyası arasında ən böyük körpü**



→ 6

**Əli Əhmədov: "Nail olacağıq ki, heç bir işçi uçot və nəzarətdən kənar qalmasın"**



→ 7

**"Azərbaycanın islama yanaşması düzgün formada qurulub"**



→ 7

**Müasir dünyada miqrasiya prosesləri: Azərbaycan reallığı kontekstində**



→ 10

**Şarl Aznavur: "Qanunsuzluq halları Ermənistanda investisiya qoyuluşuna əngəl yaradır"**



→ 9

→ 9

**"Avropa İttifaqı ilə Azərbaycan arasında sazişin imzalanması istiqamətində iş davam edir"**



→ 13

**Bu il dünyada 97 jurnalist həlak olub**



→ 16

**"Real Madrid" klublararası dünya çempionatının qalibi olub**



# Prezident İlham Əliyev 2017-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib

***Dekabrın 18-də Milli Olimpiya Komitəsində 2017-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım, Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü Mehriban Əliyeva mərasimdə iştirak ediblər.***




Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Milli Olimpiya Komitəsinin foyesində "IV İslam Həmrəyliyi Oyunları Azərbaycan fotoqraflarının gözü ilə" mövzusunda sərgi ilə tanış oldular. Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

-Əziz dostlar, 2017-ci il başa çatır. Bu il Azərbaycan idmançıları xalqımızı böyük qələbələrlə sevindirmişlər. Azərbaycanda idmanın inkişafı çox sürətlə gedir. Hər il idmançılarımız müxtəlif beynəlxalq yarışlarda yüksək nəticələr göstərirlər, medallar qazanırlar. Bu il də medalların sayı kifayət qədər çoxdur. Azərbaycan idmançıları bu il bütün beynəlxalq yarışlarda 851 medal qazanmışlar ki, onlardan 347-si qızıl medaldır. Keçən illə müqayisədə medalların sayı daha çoxdur. Bu, onu göstərir ki, idmanın inkişafı dinamik xarakter daşıyır və idmançılarımız ardıcıl olaraq böyük qələbələr qazanırlar.




Bu il bir çox idman qələbələrimiz olubdur. Onların arasında bir neçə hadisəni bu gün qeyd etmək istərdim. Bizim şahmatçılarımız üçüncü dəfə Avropa çempionu olmuşlar. Bu, böyük qələbədir, böyük nəticədir. Bu nəticə onu göstərir ki, bizim idmançılarımız həm döyüş, həm komanda, həm intellektual idman növlərində ən yüksək pilləyə qalxırlar. Şahmat üzrə Avropa çempionatında birinci olmaq doğrudan da böyük nailiyyətdir, böyük qələbədir.



Bu il bizim iki idmançımız - Məmmədrəsul Məcidov və Hacı Əliyev boks və sərbəst güləş üzrə üçqat dünya çempionu olmuşlar. Bu da tarixi qələbədir. Olimpiya idman növündə üçqat dünya çempionu olmaq böyük uğurdur, böyük qələbədir.

Azərbaycan idman məktəbinin yetirməsi - azərbaycanlı idmançı Ramil Quliyev bu il ilk dəfə olaraq yüngül atletika üzrə dünya çempionu olmuşdur. Bu da tarixi qələbədir.

Komanda idman növlərində də idmançılarımız çox yaxşı nəticələr göstərmişlər. Bakıda keçirilmiş voleybol üzrə qadınlar arasında Avropa çempionatında voleybolçu qızlarımız dördüncü yerə layiq görüldülər. Onlar hətta medal qazanmağa da çox yaxın idilər. Yarımfinal görüşündə qələbəyə çox yaxın idilər. Ancaq hesab edirəm ki, Avropada voleybol kimi çox məşhur idman növündə dördüncü olmaq da böyük nailiyyətdir. Əlbəttə ki, bizim futbolçularımız - hamımız üçün doğma olan "Qarabağ" komandası tarixdə ilk dəfə olaraq Çempionlar Liqasının final mərhələsində iştirak etmişdir. Bu, Azərbaycan futbolunun böyük qələbəsidir və komanda ölkəmizi, xalqımızı, Qarabağı bu oyunlarda ləyaqətlə təmsil etmişdir.

Mən xatırlayıram, biz Olimpiya Stadionunu inşa edərkən bəzi fikirlər səslənirdi ki, bu qədər böyük arena bəlkə də bizə lazım deyil, Tofiq Bəhramov adına 30 minlik stadionumuz, digər stadionlarımız var və bu arena heç vaxt dolmayacaq. Ancaq bu gün həyat göstərir ki, "Qarabağ" futbol klubunun oyunlarına 60 mindən çox tamaşaçı gəlmişdi. Bu gün Bakı Olimpiya Stadionu dünya miqyasında seçilən Olimpiya stadionlarından biridir. Təsadüfi deyil ki, UEFA Avropa Liqasının final görüşü də bir neçə ildən sonra bu stadionda keçiriləcək. Eyni zamanda, futbol üzə Avropa çempionatının bir neçə oyunu da bu stadionda keçiriləcək.

Bu il Azərbaycan Gimnastika Federasiyasının nümayəndəsi Fərid Qayıbov Avropa Gimnastika İttifaqının prezidenti seçilmişdir. Bu da tarixi nəticədir. Çünki bu günə qədər heç vaxt Azərbaycan nümayəndəsi Avropa idman federasiyasına rəhbərlik etməmişdir. Bu da son illər ərzində Azərbaycanda gimnastika idman növünün, ümumiyyətlə, idmanın inkişafının təzahürüdür. Ölkəmizdə keçirilmiş bir çox beynəlxalq yarışlar artıq Azərbaycanı bütün dünya idman ictimaiyyətinə çox dinamik inkişaf edən, müasir, güclü dövlət kimi təqdim etdi və bunun nəticəsidir ki, bizim nümayəndələrimiz indi Avropanın idman ailəsində də yüksək vəzifələr tuturlar.

***Ardı Səh. 3***

# Prezident İlham Əliyev 2017-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib





Əvvəli Səh. 2





Əlbəttə ki, bu il ən böyük qələbəmiz Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançılarının qələbələri olmuşdur. Bu Oyunlar, sözün əsl mənasında, böyük idman, dostluq, qardaşlıq bayramı idi. Azərbaycan bütün müsəlman ölkələrinin aparıcı idmançılarını qəbul etdi, əminəm ki, onlar öz vətənlərinə ən xoş təəssüratlarla qayıtmışlar. Burada keçirilən Oyunlar bir daha Azərbaycanın gücünü göstərdi. Göstərdi ki, Azərbaycan dünya miqyasında böyük idman dövlətidir. 2015-ci ildə Avropa Oyunlarında ikinci, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə Azərbaycan komandası layiq görüldü. Bu Oyunlarda üç mindən çox idmançı, minlərlə mütəxəssis, qonaq iştirak edib və Azərbaycan həqiqətləri ilə tanış oldular.





Mən sadəcə olaraq bir neçə önəmli idman hadisəsini diqqətinizə çatdırdım. Ancaq qələbələrin sayı çox olubdur. Qeyd etdiyim kimi, 851 medal qazanmışıq və sevindirici hal ondan ibarətdir ki, həm döyüş, həm komanda, həm də intellektual idman növlərində bizim idmançılarımız çempiondurlar, qalibdirlər.





Bakıda keçirilmiş mötəbər beynəlxalq yarışlar bütün dünyanın diqqətini cəlb edir. Onu da qeyd etməliyəm ki, bu il ikinci dəfə olaraq Bakıda "Formula-1" yarışı keçirilmişdir. Ümumi rəyə görə, - bu, artıq xarici mətbuatda da qeyd olunub, - 20 yarışın arasında bu yarışlar ilin ən yaxşı yarışı hesab olunub. Yəni, bu da bizim böyük nailiyyətimizdir, böyük uğurumuzdur. Bir çox "Formula-1" yarışlarından fərqli olaraq bizim yarışımız şəhər yarışıdır və bu, eyni zamanda, bütün dünyaya - yarım milyardlıq tamaşaçı auditoriyasına Bakı şəhərinin gözəlliyini nümayiş etdirir. Təsadüfi deyil ki, 2016-cı ildə ölkəmizə gələn turistlərin sayı 24 faiz və 2017-ci ilin 11 ayında isə daha 20 faiz artmışdır. Əlbəttə, bunun səbəbləri təkcə "Formula-1" yarışı deyil, Azərbaycanda gedən inkişaf, sabitlik, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, müasir infrastruktur, şəhərimizin gözəlliyi, müasir otellər, viza rejiminin sadələşdirilməsidir. Eyni zamanda, hesab edirəm ki, "Formula-1" ölkəmizin təbliğatı üçün nadir bir yarışdır. Yəni, beş yüz milyon tamaşaçı bu yarışı müntəzəm olaraq izləyir və bir daha demək istəyirəm ki, Bakının gözəlliyini, Azərbaycanın qüdrətini görür.

Beləliklə, təkcə sadaladığım bu hadisələr, bu qələbələr deməyə əsas verir ki, Azərbaycan, sözün əsl mənasında, güclü idman dövlətidir. Əminəm ki, idmançılarımız bundan sonra da bizi qələbələrlə sevindirəcəklər. Azərbaycanda idmanın inkişafına çox böyük diqqət göstərilir, dövlət siyasəti aparılır, idmanın maddi-texniki bazası möhkəmləndirilir. Bakının idman qurğuları dünyanın ən yüksək standartlarına cavab verir. Bölgələrdə də Olimpiya İdman mərkəzlərinin tikintisi davam etdirilir. Bu il Abşeron və Ağcabədi rayonlarında iki gözəl Olimpiya İdman Mərkəzi yaradılmışdır. Gələn il dövlət büdcəsində bölgələrdə üç mərkəzin tikintisi nəzərdə tutulub. Onlardan biri istifadəyə veriləcək, ikisində isə tikinti gedəcək. Ondan sonrakı illərdə də biz bu siyasəti davam etdirəcəyik. Bu günə qədər bölgələrdə 43 Olimpiya İdman mərkəzi yaradılmışdır ki, bunlar gənclər, idmançılar, rayon sakinləri üçün çox gözəl imkanlar yaradır.

Əlbəttə, bu istiqamətdə işlər bundan sonra da davam etdiriləcək. Əminəm ki, idmançılarımız bizi beynəlxalq yarışlarda bundan sonra da sevindirəcəklər. Bütün bu uğurların səbəbləri aydındır. İdmana dövlət dəstəyi, idmançılarımıza qayğı göstərilir.

*Ardı Səh. 4*

# Prezident İlham Əliyev 2017-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib









## Rəsmi xronika

Prezident İlham Əliyev Həsən Dilsuz oğlu Məmmədzadənin Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafında xidmətləri olan bir qrup şəxsin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Əhəd Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə Əhəd Əliağa oğlu Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin. Nazirlər Kabinetinə Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

**Əvvəli Səh. 3**

İdmanla məşğul olan bütün qurumlar - Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, idman cəmiyyətləri bir nöqtəyə vurur. Yəni, bizim məqsədimiz Azərbaycanda idmanın inkişaf etdirilməsidir, Azərbaycanın dünyada güclü idman dövləti kimi tanıdılmasıdır və idmanın kütləviliyinin təmin olunmasıdır. Regional Olimpiya mərkəzlərinin tikintisinin səbəbi də məhz budur ki, idman kütləvi xarakter alsın.

Mən hər zaman idmançılarla görüşəndə qeyd edirəm ki, hər bir insan idmanla məşğul olmalıdır. Fiziki sağlamlıq hər bir insan üçün çox önəmlidir. Biz son illər ərzində bu istiqamətdə bir çox vəzifələri icra etdik. Bütün bölgələrdə müasir xəstəxanalar, diaqnostika mərkəzləri tikilmişdir. Dövlət tərəfindən təşkil olunan dispanzerizasiya, müayinədənkeçmə işləri aparılır. Hər il beş milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir. Ekoloji vəziyyət yaxşılaşır, təmiz içməli su layihələrinin icrası geniş vüsət almışdır. Əlbəttə ki, fiziki hərəkət sağlamlıq üçün əsas amillərdən biridir. İdmanın kütləviliyi idman nəticələri əldə etmək üçün yox, sadəcə olaraq, ona görə vacibdir ki, hər bir insan özünü yaxşı hiss etsin.

Mən şadam ki, gənc idmançılarımız da bizi qələbələrlə sevindirirlər. Yeniyetmə, uşaq idmanı olmadan idman uğurlarından danışmaq mümkün deyil. Gənc nəsil də yetişir, artıq yarışlara çıxır, qələbələr qazanır və beləliklə, idman uğurlarımızın ardıcıllığı təmin olunur.



Əgər biz iştirak etdiyimiz bütün yay Olimpiya oyunlarının nəticələrinə fikir versək görərik ki, hər dəfə daha böyük sayda medallar qazanırıq. Yəni, idmançıların hazırlığı, gənclərin, yeniyetmələrin idman bölmələrinə gəlmələri bu nəticəni təmin edir. Son Rio Yay Olimpiya Oyunlarında Azərbaycan medalların sayına görə dünya miqyasında 14-cü yerə qalxmışdır. Bu, tarixi qələbədir. Bu qələbəni bir neçə il bundan əvvəl təsəvvür belə etmək mümkün deyildi. Bu qələbəni biz cəmi 25 il ərzində qazanmışıq. Yəni, müstəqilliyimizin 25 illiyinə təsadüf edən Rio Olimpiya Oyunlarında biz belə böyük qələbəni qazanmışıq və müstəqilliyimizə bunun çox böyük töhfəsi olmuşdur. Azərbaycan xalqı bir daha bütün dünyaya göstərdi ki, Azərbaycanda idman yüksək səviyyədədir. Əgər idman nəticələrinə fikir versək görərik ki, əksər hallarda idman ancaq inkişaf etmiş ölkələrdə sürətlə inkişaf edir. Çünki idmanın inkişafı üçün böyük vəsait lazımdır.

Ona görə idmanın inkişafı inkişafımızın ümumi kontekstində mühüm yer tutur. Azərbaycan hər bir istiqamət üzrə son illər ərzində uğurlu inkişaf yolu keçmişdir. Güclü iqtisadi imkanlarımız, beynəlxalq mövqelərimizin gücləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanın çox hörmətli ölkə kimi qəbul edilməsi, əlbəttə ki, bizim ümumi uğurlarımıza şərait yaradır. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılar cəmiyyətdə böyük hörmətə malikdirlər. Onu da qeyd etmək istəyirəm ki, idmançılarımızın mütləq əksəriyyəti, xüsusilə bizim tanınmış idmançılarımız məişətdə də gənclər üçün nümunədir. İdmançılarımızın qələbələri və dövlət tərəfindən onların mükafatlandırılması uşaq, yeniyetmə, gənc idmançılarda da ruh yüksəkliyi yaradır. Onlar da görkəmli çempionlar kimi olmaq, böyük uğurlar qazanmaq, öz bayrağını qaldırmaq istəyirlər və istəyirlər ki, xalq onları tanısın və onlara hörmət etsin.

Ona görə bu gün idmana sadəcə olaraq bir sahə kimi baxmaq mümkün deyil. İdman hər bir ölkənin ictimai həyatında çox böyük rol oynayır. Təsadüfi deyil ki, ölkələr çalışırlar beynəlxalq yarışlarda, dünya çempionatlarında, xüsusilə Olimpiya oyunlarında daha yüksək yer tutsunlar. Çünki bu, ölkələrə daha böyük şöhrət gətirir. Əgər İslam Həmrəyliyi Oyunlarının tarixçəsinə nəzər salsaq görərik ki, nə qədər gərgin mübarizə getmişdir. Eyni zamanda, Avropa Oyunlarında da gərgin mübarizə getmişdir. Əlbəttə ki, bu iki mötəbər yarışda birinci, ikinci yerləri tutmaq bizim tarixi qələbəmizdir.

İdmanın inkişafı bundan sonra da diqqət mərkəzində olacaqdır. Bu il biz, eyni zamanda, Milli Olimpiya Komitəsinin 25 illiyini qeyd etdik. Bu tədbirdə də mən öz fikirlərimi bildirdim. Bundan sonra da Azərbaycan dövləti idmançılara öz qayğısını əsirgəməyəcək, idmanın inkişafı üçün nə lazımdırsa biz onu da edəcəyik. İdmançılara isə yeni-yeni qələbələr, yeni uğurlar arzulayırıq.

Mən bu fürsətdən istifadə edərək, - biz hər il ilin sonunda görüşürük, - bütün idmançıları qarşıdan gələn Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik etmək istəyirəm, sizə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

x x x

Sonra 2017-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olundu.

Azərbaycan Prezidenti ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə Ağayar Axundzadəyə, Zemfira Meftahətdinovaya, Nağı Babayevə, Firat Hüseynova, Vaqid Davudova, Qərib Əliyevə və Kamal Əhmədova "Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi", Aslan Şirəliyevə "Əməkdar Jurnalist", Kamil İsgəndərova "Əməkdar Həkim" fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etdi.

Dövlətimizin başçısı İlham Əliyev Elxan Məmmədova, Tahir Gözələ və Fərid Qayıbova Azərbaycan Respublikası Prezidentinin fəxri diplomunu təqdim etdi.

Ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında xüsusi xidmətləri olan Əhəd Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənədlər təqdim olundu. Tədbirdə, həmçinin Azər Həsənov, Namiq Əsgərov, Güloğlan Cabbarov, Xəyal Əhmədov, Faiq Həsənov, Rəsul Məhəmmədov Milli Olimpiya Komitəsi prezidentinin fəxri fərmanları ilə təltif edildilər.

Prezident İlham Əliyev 2017-ci ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etdi.

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar İncəsənət Xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim etdi.

# "Euronews" telekanalı "Bakutel-2017" sərgisindən reportaj yayımlayıb

*Azərbaycan Prezidenti İlham Əliyev telekanalın müxbirinin sualını cavablandırıb*

***"Euronews" telekanalında Bakıda keçirilən "Bakutel-2017" sərgisi ilə bağlı reportaj yayımlanıb. Sərginin əhəmiyyətindən danışılan reportajda Prezident İlham Əliyev "Euronews"un müxbirinin sualını cavablandırıb. AZƏRTAC reportajın xülasəsini təqdim edir.***




Reportajda deyilir ki, Azərbaycan beynəlxalq "Bakutel-2017" telekommunikasiya və informasiya texnologiyaları sərgisi virtual və tamamlanmış reallığa həsr olunub. Əsas istiqamətlərdən biri məhsulların yeni tətbiq növlərini axtarmaq üçün bu texnologiyaların birləşdirilməsidir. Belə ki, tamamlanmış reallıq eynəyi həkimlərə plastik cərrahlara əməliyyat zamanı eyni vaxtda həm xəstənin üzünü, həm də arzulanan konturları görməyə imkan verir.

**Azərbaycan Tibb Universitetinin çənə-üz cərrahiyyəsi kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru İsmayıl Fərzəliyev deyib**:

-Bu layihənin əsas ideyası pasiyentin virtual və real anatomiyasını görməyə imkan yaratmasıdır. Əməliyyat zamanı eynək taxılır və həkimlər, sözün əsl mənasında, dərinin altındakıları müşahidə edə bilirlər. Onlar üzün sümüklərini, əzələləri, sinirləri və pasiyentin damarlarını görə biləcəklər.

Reportajda qeyd edilir ki, ənənəvi virtual reallıq əsasən oyun sənayesində istifadə olunur. Lakin bu texnologiyalar digər sahələrdə daha çox tətbiq edilir. **"Phobia VR"nin sözçüsü Aygün Həsənova bildirib:**

-Bir çox ölkələr artıq virtual gerçəklik platformalarından təbabətdə istifadə edirlər. Bizim şirkət xüsusi olaraq təbabət, peşəkar treninqlər, yanğınsöndürmə hissələrinin hazırlığı üçün nəzərdə tutulmuş platformalar hazırlayır. Reportajda qeyd edilir ki, sərgidə dünyanın 20 ölkəsindən 192 şirkət iştirak edib. Burada ənənəvi olaraq informasiya texnologiyaları sahəsində maraqlı start-up ideyalarla tanış olmaq mümkündür.

**"Wand"ın layihə rəhbəri Elçin Ağazadə qeyd edib:**

-Wand sizin kağıza yazdıqlarınızın hamısını smartfonda avtomatik olaraq saxlayan elektron qurğudur. Otuz dəqiqə sonra mürəkkəb kağızdan yox olur, lakin bu müddətdə sizin məlumatlarınız artıq serverdə, yaxud proqram əlavədə tam saxlanılır. Reportajın müəllifi vurğulayır ki, 2016-cı ildə Dünya Bankının apardığı araşdırmalara görə, Azərbaycan əsasını yanacaq-energetika kompleksi təşkil edən iqtisadiyyatını şaxələndirir. Bunun üçün informasiya-kommunikasiya texnologiyaları sektorunun inkişafı zəruridir. **Azərbaycan Prezidenti İlham Əliyev "Euronews"un müxbirinin sualını cavablandıraraq deyib:**

-İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı bizim əsas vəzifələrimizdən biridir. Bizim iqtisadiyyatımızın şaxələndirilməsi strategiyası çərçivəsində bu, zəruridir.

Reportajda diqqətə çatdırılır ki, Beynəlxalq Elektrorabitə İttifaqının məlumatına görə, Azərbaycan informasiya-kommunikasiya texnologiyalarının inkişafı baxımından 176 ölkə arasında 65-ci yeri tutur. Bakı bu sektorun inkişaf strategiyasını işləyib hazırlayıb.

# Prezident İlham Əliyev Dünya Bankının nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Dünya Bankı Qrupuna daxil olan Çoxtərəfli İnvestisiya Zəmanəti Agentliyinin icraçı vitse-prezidenti və baş icraçı direktoru xanım Keiko Hondanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



AZƏRTAC xəbər verir ki, Keiko Honda Dünya Bankının prezidenti Cim Yen Kimin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq təmsil etdiyi qurumun ölkəmizlə uğurlu əməkdaşlıq həyata keçirdiyini, Azərbaycanda aparılan iqtisadi islahatları yaxından izlədiklərini və görülən işləri yüksək qiymətləndirdiklərini bildirdi. Azərbaycanda iqtisadi çətinliklərin arxada qoyulması, ölkədə sabitliyə və inkişafa nail olunması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdıran Keiko Honda Azərbaycan iqtisadiyyatının inkişafı və ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində əldə edilən uğurların önəmini qeyd etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Dünya Bankının Azərbaycanda həyata keçirilən iqtisadi islahatlara verdiyi davamlı dəstəyi yüksək qiymətləndirdi və təşkilat tərəfindən ölkəmizə ayrılan maliyyə vəsaitlərinin önəmini qeyd etdi. Dövlətimizin başçısı bu il Azərbaycanla Dünya Bankı Qrupu arasında əməkdaşlığın 25 illiyinin qeyd olunduğunu məmnunluqla bildirərək ötən dövr ərzində Çoxtərəfli İnvestisiya Zəmanəti Agentliyi tərəfindən ölkəmizdə xarici investorların həyata keçirdiyi bir sıra mühüm investisiya layihələrinə, eləcə də qlobal əhəmiyyətli "Cənub Qaz Dəhlizi" layihəsinə verilən dəstəyin önəmini vurğuladı. Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" layihəsinin nəinki Azərbaycan, o cümlədən Avropa da daxil olmaqla geniş bir coğrafiyanı əhatə edən region üçün mühüm əhəmiyyət daşıdığını qeyd etdi. Ölkəmizin maliyyə qabiliyyətli etibarlı tərəfdaş olduğunu, üzərinə götürdüyü öhdəlikləri daim yerinə yetirdiyini qeyd edən dövlətimizin başçısı TANAP layihəsi ilə bağlı işlərin qrafikə uyğun, uğurla həyata keçirildiyini və vaxtında tamamlanacağını bildirdi.

Prezident İlham Əliyev dedi ki, bu il Azərbaycan iqtisadiyyatı artıq sabitləşmə dövrünə qədəm qoyub. İqtisadiyyatımızda neft amilini nəzərə almasaq, görərik ki, bu il qeyri-neft sektorunda 2,5 faiz, qeyri-neft sənaye sahəsində 3 faizdən çox, aqrar sektorda isə 4 faizdən çox inkişafa nail olunub. Neftin qiymətinin aşağı düşməsinin ümumi daxili məhsulun həcminə mənfi təsir göstərməsinə baxmayaraq, qeyri-neft sektoru ümumi daxili məhsulun 70 faizini təşkil edib. Dövlətimizin başçısı qeyd etdi ki, gələcəkdə Cənub Qaz Dəhlizinin işə düşməsi, "Əsrin müqaviləsi"nin müddətinin uzadılması, əlavə investisiya qoyuluşu, qlobal nəqliyyat layihələrinin uğurla həyata keçirilməsi Azərbaycan iqtisadiyyatının inkişaf perspektivlərinə nikbinliklə baxmaq üçün əsas verir.

Görüşdə Azərbaycan ilə Çoxtərəfli İnvestisiya Zəmanəti Agentliyi arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Dünya Bankının prezidenti Cim Yen Kimin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Dünya Bankının prezidentinə çatdırmağı xahiş etdi.

# Şərq ilə Qərb dünyası arasında ən böyük körpü

***Dünyada gedən qloballaşma prosesində milli-mənəvi dəyərlər qorunub saxlanılır və milli özünüdərk, milli ideologiya və azərbaycançılıq məfkurəsi əsas aparıcı xətt olaraq təbliğ edilir. Bu prosesdə, Heydər Əliyev Fondu qeyri-hökumət qurum olaraq əhəmiyyət kəsb edən layihələrə imza atır. Fond Azərbaycan tarixi və mədəni abidələri, xalçaçılıq sənəti, muğam sənəti və s. ətrafında təbliğat işləri aparır, dünyanı mədəni irsimizlə tanış edir və onun inkişafına çalışır. Avropa ailəsinin üzvü olan Azərbaycanın zəngin mədəniyyəti və tarixi irsi haqqında geniş şəkildə təbliğat aparılır. Şərq və Qərb sivilizasiyalarının mədəni nailiyyətlərini uğurla sintez etmiş Azərbaycan mədəniyyətinin böyük və görkəmli xadimləri sayəsində bu gün Azərbaycan bəşəriyyətin mədəni liderlərindən birinə çevrilib.***



*Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva daha bir mükafatla - II dərəcəli Müqəddəs Məleksima Knyaginya Olqa ordeni ilə təltif edilib*

Heydər Əliyev Fondunun Azərbaycan musiqisinə - muğamına olan diqqəti və təbliği sayəsində bu janr özünün yeni bir inkişaf mərhələsini yaşıyır. Təsadüfi deyil ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Kanadada "İlahi Muza - Azərbaycan Muğamının Hamisi" adlı abidəsi qoyulub. Bu abidə elit mənzərəli Niagara on the Lake şəhərinin (Kanadanın birinci paytaxtı) təmtəraqlı malikanələrindən birini bəzəyir. Fondun gördüyü işlər qeyri-millətlərin nümayəndələri tərəfindən yüksək qiymətləndirilir. Belə ki, Azərbaycan muğamının dirçəldilməsi və onun beynəlxalq səviyyədə geniş təbliğ edilməsi, habelə, bütün dünyada sülh naminə sivilizasiyaların dialoqunun səmərəli inkişafı və möhkəmlənməsi, dünya mədəniyyətlərinin bir-birinə yaxınlaşması və qarşılıqlı nüfuz etməsi Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Azərbaycan musiqisi, onun təsviri sənəti, qədim muğam minlərlə Avropalını bənzərsiz bədii gözəlliyi və mənəvi kamilliyi, habelə, fəlsəfi məzmununun dərinliyi ilə fəth edir. Bir-birinin ardınca Azərbaycanın mənəvi incilərinin dünya Qeyri-Maddi Mədəni İrs Siyahısına salınması da Mehriban Əliyevanın adı ilə bağlıdır. Azərbaycan muğamı YUNESKO tərəfindən bəşəriyyətin Qeyri-Maddi İrsinin Şah Əsəri elan olunub, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu Dünya Mədəni İrs Siyahısına daxil edilib. Azərbaycan tarixində, ilk dəfə olaraq, Şirvanşahlar Sarayı və Qız Qalası daxil olmaqla, İçəri Şəhər Dövlət Tarix Memarlıq Kompleksi YUNESKO-nun Dünya Mədəni İrs Siyahısındadır. Aşıq sənəti, Azərbaycan xalçası və Novruz bayramı və s. YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alıb. Qeyd edək ki, Mehriban xanım Əliyevanın beynəlxalq səviyyədə gördüyü işlər cavabsız qalmamış, dünya dövlətləri və nüfuzlu təşkilatlar tərəfindən müxtəlif adlara, mükafatlara layiq görülmüşdür. Onun hər bir uğuru Azərbaycanın nailiyyəti və yüksəkliyidir. O, Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub-saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə YUNESKO-nun Xoşməramlı Səfiri adını daşıyır. Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə İSESKO-nun Xoşməramlı səfiri adına layiq görülüb. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə, "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülməsi Onun dünya miqyasında əməllərinin, birmənalı olaraq, qiymətləndirilməsini əyani olaraq təsdiqləyir. Azərbaycan ilə Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə Mehriban xanım Əliyeva Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni ilə təltif edilib. Fransaya münasibətdə göstərdiyi xidmətlərinə və nümayiş etdirdiyi sadiqliyinə görə Fransa Respublikası Prezidentinin sərəncamı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edilib. Uğur onu müşayiət etdiyindən YUNESKO-nun "Qızıl Motsart" medalı Mehriban xanım Əliyevaya təqdim olunub. Mehriban xanım Əliyeva Türk Dünyası Mədəni İrsinin zəngin parçası olan Azərbaycan türklərinin maddi və qeyri-maddi mədəniyyət abidələrinin qorunması və təbliği sahəsində böyük xidmətlərinə görə TÜRKSAV-ın "Türk dünyasına xidmət" mükafatına layiq görülüb. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə "Heydər Əliyev Mükafatı" ilə təltif edilib. Bütün bunlar Mehriban xanımın Azərbaycan xalqı qarşısında xidmətlərinə olan mükafat və qiymətdir.

Heydər Əliyev Fondunun xüsusi diqqət yetirdiyi prioritet sahələrdən biri olan tolerantlıq ölkəmizdə olan bu ənənələrinin qorunmasına xidmət edir. "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi əsasında 2006-cı ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə bərpa işləri aparılıb. Bu layihə çərçivəsində həm müsəlman məscidləri, həm də xristian kilsəsi bərpa edilib, Azərbaycanda yaşayan yəhudi uşaqları üçün məktəb və mədəni mərkəz inşa olunub. Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpasında, bir sıra digər layihələrdə də təşəbbüskar olaraq iştirak edib. Qeyd olunan layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılıb. Azərbaycanda məskunlaşan xalqların etnomədəni komponentlərinin inkişafına yönələn tədbirlərin həyata keçirilməsi istiqamətində də Azərbaycan görülən işlər, məhz müasir dövrümüzdə dövlətin bütün millətdən olan insanlara diqqət və qayğı ilə yanaşmasının nəticəsidir. Fond tərəfindən Bakıdakı Müqəddəs Məryəm kilsəsi təmir və bərpa olunmuşdur. Bütün bunlar Azərbaycanda tolerantlığın, dözümlülüyün və dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə ehtiva edir. Əsrlər boyu Şərq ilə Qərb arasında körpü rolunu oynayan Azərbaycan bütün millətlərə, dinlərə və mədəniyyətlərə böyük hörmətlə yanaşır. Mehriban xanım Əliyeva, müsahibələrinin birində dediyi kimi, dünyəvi müsəlman ölkəsi olan Azərbaycan yalnız xristian aləminə aid müqəddəs yerlərin və tarixi-mədəni abidələrin bərpasında iştirak etmir, eyni zamanda, ümumdünya əhəmiyyətli abidələri bərpa edir. Bu, fondun həyata keçirdiyi mühüm siyasətidir.

İctimai, mesenatlıq və xeyriyyəçilik əməlləri, xalqlar arasında dostluğun möhkəmlənməsi, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyət, qayğıya ehtiyacı olan uşaqlara, təhsilə diqqət və s. Mehriban Əliyevanın humanizm prinsiplərindən qaynaqlanır. Onu da vurğulayaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr ölkələr arasında əməkdaşlığın inkişafında müstəsna xidmətləri ilə seçilir. Bu gün deyə bilərik ki, dünyanın bütün ölkələrində fondun Azərbaycan həqiqətlərinin təqdimi istiqamətində gördüyü işlərə münasibət yüksəkdir. Dünyanın bir sıra nüfuzlu mükafatlarına layiq görülməsi də, elə bu bəşəri dəyərlərə münasibətinin və fəaliyyətinin nəticəsidir. Bu günlərdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva II dərəcəli Müqəddəs Məleksima Knyaginya Olqa ordeni ilə təltif edilib. Mehriban xanım Əliyevanı bu ordenlə Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə, habelə, Rusiya ilə Azərbaycan arasında dostluğun möhkəmləndirilməsi sahəsində çoxsaylı xidmətlərinə görə Moskvanın və bütün Rusiyanın patriarxı Kirill təltif edib. Bu yüksək ordenlə kilsə, dövlət və ictimai həyatın müxtəlif sahələrində böyük xidmətləri olan qadınlar təltif edilirlər. Xatırladaq ki, 2013-cü ildə Mehriban Əliyevanın himayədarlığı ilə Həştərxanda Müqəddəs Məleksima Knyaz Vladimirə Rusiyada ilk abidə ucaldılıb. Bu il Mehriban Əliyevanın şəxsi təşəbbüsü ilə abidənin ətrafındakı ərazidə abadlıq işləri görülüb. Onu da vurğulayaq ki, ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülmüşdü. Daha sonra "İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru" Diplomu və Xatirə nişanı ilə təltif edilib.

Bəşəri ideyaları ilə dünyaya sülh aşılayan, insanlığı təbliğ edən Azərbaycanın Birinci Xanımının insanlığın tələbinə uyğun addımları həssas və səmimi bir insan obrazını diqqətə çəkir. Azərbaycanda və onun hüdudlarından kənarda həyata keçirdiyi layihələr, milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasında, eyni zamanda dünyada təbliğində rolu, Azərbaycanda və ölkə xaricində xeyriyyəçilik fəaliyyəti, elm, təhsil, səhiyyə, idmanın inkişafına diqqət və qayğısı Azərbaycan Xanımı haqqında bütün gerçəklikləri ifadə edir. Mehriban xanım Əliyeva dünyada bu qədər ali dövlət təltiflərinə layiq görülmüş ilk qadındır. Mehriban xanım Əliyevanın nəcib təşəbbüsləri, layihələri Şərq ilə Qərb dünyası arasında ən böyük vasitəçi və körpüdür.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Əli Əhmədov: “Nail olacağıq ki, heç bir işçi uçot və nəzarətdən kənar qalmasın”

## *“Tikintidə işçilərin sayını gizlətmək həm qeyri-mümkün, həm də tamamilə mənasız olacaq”*

***- Bu ilin mart ayında Azərbaycan Prezidentinin sərəncamı ilə qeyri-rəsmi məşğulluğun qarşısının alınması məqsədilə Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası yaradılıb. İl başa çatır. Komissiyanın fəaliyyətinin nəticələri barədə nə demək olar?***

- Komissiyanın yaradılmasından bir il ötməsə də, təqvim ili başa çatır və bu mənada nəticələr haqqında danışmaq məntiqli olar. Əvvəla onu deyim ki, xatırlatdığınız sərəncamdan sonra cənab prezidentin qeyri-rəsmi məşğulluğun qarşısının alınması probleminə dair daha iki sərəncamı imzalanıb. Bunun biri tikinti sahəsində qeyri-rəsmi məşğulluğun aradan qaldırılması ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi xidmətinə əlavə səlahiyyətlərin verilməsi barəsindədir. İkinci sərəncam isə qeyri-rəsmi məşğulluğun aradan qaldırılması sahəsində tədbirlər planının təsdiq edilməsi haqqındadır. Göründüyü kimi, qeyri-rəsmi məşğulluğa qarşı mübarizə hökumətin fəaliyyətində diqqət mərkəzindədir və bu mübarizə uzun müddətə nəzərdə tutulur. Söhbət hansısa kampaniyadan deyil, əksinə, problemin kökünün kəsilməsinə yönəlmiş, sözün əsl mənasında, qəti mübarizədən gedir.

Konkret nəticələr haqqında sualınıza gəldikdə isə, bu barədə ilk, lakin ümidverici nəticələr artıq mövcuddur. Cari ilin 11 ayı ərzində əmək münasibətlərini rəsmiləşdirən işçilərin sayı təxminən 50 min nəfər, daha dəqiq desək 49 min 194 nəfər artıb. Daha çox artım topdan və pərakəndə ticarət sahəsində (17 min 264), tikinti (11 min 390) və emal sənayesində (7 min 758) müşahidə olunub. Eyni zamanda sevindirici dinamikanı da qeyd etmək istərdim. Bu da aydan-aya əmək müqaviləsini rəsmiləşdirənlərin sayının artmasıdır. Misal üçün, cari ilin oktyabr ayında əmək müqaviləsini rəsmiləşdirənlərin sayı 10 min 738 nəfər olduğu halda, noyabr ayında bu göstərici 14 min 585 nəfər olub. Deməli, həm işçilər, həm işəgötürənlər arasında əmək müqaviləsini



**Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyanın sədri Əli Əhmədovun müsahibəsi**

rəsmiləşdirməyin zəruriliyini, hər iki tərəf üçün faydasını dərk edənlərin sayı artmaqdadır. Mən bunu Komissiyanın işinin ən mühüm nəticəsi hesab edərdim. İndiki halda əsas məqsədimiz bu meyli daha da gücləndirməkdən ibarətdir.

***- Qarşıya qoyulan hədəfə çatmaq üçün daha hansı tədbirlərin görülməsi planlaşdırılır?***

- Qeyd etdiyim kimi, Azərbaycan prezidentinin 9 oktyabr 2017-ci il tarixli sərəncamı ilə qeyri-rəsmi məşğulluğun qarşısının alınması sahəsində tədbirlər planı təsdiq edilib. Nəzərdə tutulur ki, əvvəla, əmək münasibətlərinin rəsmiləşdirilməsi üçün daha etibarlı hüquqi baza yaradılsın. Əmək Məcəlləsində, Vergilər Məcəlləsində, Mülki Məcəllədə bir sıra mühüm dəyişikliklər ediləcək, əmək müqaviləsi olmadan işçi qüvvəsindən istifadə etmək imkanları məhdudlaşdırılacaq.

Tikinti sahəsində qeyri-rəsmi məşğulluğa münbit zəmin yaradan sifarişçi-podratçı-subpodratçı münasibətləri təkmilləşdiriləcək, bunlar arasında bağlanan müqavilələrdə tikintinin ümumi dəyəri, əmək haqqı fondu, əmək məsrəfi, o cümlədən vergi və sosial sığorta ödəmələri ilə bağlı göstəricilər məcburi xarakter alacaq. Bütün bunlardan sonra tikintidə işçilərin sayını gizlətmək həm qeyri-mümkün, həm də tamamilə mənasız olacaq.

Çox mühüm yeniliklərdən biri bu olacaq ki, yeni yaradılan iş yerlərinə dair məlumatlar yalnız əmək müqaviləsi bağlandığı halda Dövlət Statistika Komitəsi tərəfindən qəbul olunacaq. Düşünürəm ki, bu tələb qeyri-rəsmi məşğulluğun qarşısını almağa, xüsusilə də, iş yerlərinin yaradılması kontekstində, mühüm töhfə verə biləcək.

Bir çox sahədə, xüsusilə də xidmət və ticarət sahələrində qeyri-rəsmi məşğulluqla mübarizə sahəsində böyük təcrübə toplamış ölkələrdə olduğu kimi, işçi sayı normativləri deyilən anlayışlardan istifadə olunacaq. Misal üçün, 1000 m2 sahəsi olan iaşə müəssisəsində 3-5 nəfərin işləməsi, indi belə hallar kifayət qədərdir, real ola bilməz. Əgər həmin iaşə obyektinin iş həcmi azdırsa, 1000 m2 sahədən istifadə etmək onun nəyinə lazımdır, axı bu mənfəət baxımından faydalı deyil.

Nəhayət, elektron informasiya uçot və nəzarət formasından geniş istifadə olunacaq. Ona nail olmaq istəyirik və nail olacağıq ki, heç bir işçi uçot və nəzarətdən kənar qalmasın, sahibkar bunu nə qədər istəsə də. İndiki texniki imkanlar bunu asanlıqla təmin edir.

***- KİV-lə ötən görüşünüz zamanı sahibkarları “qara mühasibat”lıqdan əl çəkməyə çağırmışdınız. Sahibkarlara yeni çağırışınız varmı?***

- İslam dinində halallıq anlayışı əsas yerlərdən birini tutur. Sahibkarlıq, mənfəət sahəsinə tətbiq etsək, onda belə bir çağırış alınacaq: Vergisi ödənən gəlir halaldır. Mən tövsiyə edərdim ki, sahibkarlar, iş adamları qanunla nəzərdə tutulan bütün ödəmələri könüllü surətdə həyata keçirsinlər. Belə olan halda onları gözləyən bir çox problemlər avtomatik aradan qalxacaq. “Doğruya zaval yoxdur”, deyiblər. İstərdim ki, bizim sahibkarlar və iş adamları həmişə doğru olsunlar. O ki qaldı Komissiyanın fəaliyyətinə, o davam edəcək, bütün neqativ hallar gec-tez aşkar edilib aradan qaldırılacaq. Buna heç kimin şübhəsi olmamalıdır. (apa)

# “Azərbaycanın islama yanaşması düzgün formada qurulub”



***“Azərbaycanın islama yanaşması düzgün formada qurulub”. SİA-nın verdiyi məlumata görə, bunu dünən Bakıda keçirilən “Prezident İlham Əliyevin siyasəti və İslam həmrəyliyi: anlaşmadan əməkdaşlığa doğru” adlı konfransda Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib. Onun sözlərinə görə, dünyada islamı tamam başqa ad altında təqdim edirlər: “Bəzən bu, subyektiv səbəblərdən olsa da, əksər hallarda isə bəzi ölkələr buna imkan yaradır ki, islamı onların istədikləri kimi təqdim etsinlər. İslam daxilində olan müəyyən qüvvələr prinsiplərdən kənara çıxaraq öz qanunları ilə cəmiyyəti başa istiqamətlərə yönəldərək canfəşanlıq edirlər. Ona görə də ilk olaraq bunların qarşısı alınmalıdır”.***

S.Novruzov bildirib ki, islamın şərhini ictimaiyyətə düzgün çatdırmaq lazımdır: “İslam oyunları keçirildikdə su əsas simvol seçildi. Bu islamla bilavasitə əlaqəli olan amil idi. Başqa atributların seçilməsi müəyyən problemlər yarada bilərdi. Çünki sui-istifadə etməyə çalışan başqa ölkələr var. İslamı düzgün olaraq “Qurani-Kərim”də təqdim olunduğu kimi bəşəriyyətə çatdırmaq vacibdir”.

Komitə sədri deyib ki, Azərbaycan bu istiqamətdə düzgün yol seçib: “Dövlət tərəfindən dinə istənilən kömək göstərilir. Əsas dini tədbirlərdə dövlət başçısı şəxsən iştirak edir. Bu onun göstəricisidir ki, dünyada Azərbaycan nümunə kimi göstərilir. Ölkədə bütün dinlər bərabər şəkildə icra olunur. Qanunla qadağan olunmayan şəkildə bütün icmalar fəaliyyət göstərir”.

# Gələn il Berlin, Moskva, Dubaya və Çinə ixrac missiyaları təşkil olunacaq

***Gələn ilin fevralında Berlin, Moskva və Dubay şəhərlərinə, mayda isə Çinə ixrac missiyaları təşkil ediləcək. Berlinə təşkil olunacaq ixrac missiyasında 10 şirkət vahid ölkə stendi ilə təmsil olunacaq.***

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) vitse-prezidenti Yusif Abdullayev Birləşmiş Ərəb Əmirliyinin (BƏƏ) Dubay və Səudiyyə Ərəbistanının Ciddə şəhərində təşkil edilmiş ixrac missiyalarının yekunlarına həsr olunmuş mətbuat konfransında deyib.

“Made in Azerbaijan” brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən dekabrın 3-7-də Dubay şəhərinə və dekabrın 6-8-də Ciddə şəhərinə təşkil edilən ixrac missiyaları barədə məlumat verən Y.Abdullayev qeyd edib ki, Dubay şəhərinə təşkil olunan ixrac missiyasında müsabiqə əsasında seçilmiş və Azərbaycanda meyvə şirələri, təbii mineral sular, meyvə-tərəvəz məhsulları, quru meyvə, konservləşdirilmiş məhsullar, ət və ət məhsulları, bal, çay, süd və süd



məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən şirkətlər iştirak edib.

Missiya çərçivəsində meyvə-tərəvəz istehsalı və ixracı sahəsində fəaliyyət göstərən şirkətlər Yaxın Şərq ölkələrində ən iri meyvə-tərəvəz sərgisi olan “VOP Dubai”ə də qatılıblar. Sərgi çərçivəsində “Azərbaycanın meyvə-tərəvəz məhsullarının ixrac potensialı” mövzusunda seminar keçirilib. Seminarda xarici sahibkarlara rəqabətqabiliyyətli və ixracyönümlü məhsullarımız, “Made in Azerbaijan” brendinin təşviqi məqsədilə həyata keçirilən tədbirlər barədə məlumat verilib, ixrac missiyasında iştirak edən şirkətlərin fəaliyyətləri barədə təqdimatlar keçirilib. Sərgidə Azərbaycan məhsulları nümayiş olunub. Meyvə-tərəvəz məhsullarımız tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb və Azərbaycan meyvələrinin Hindistana ixracına dair razılıq əldə edilib. Diqqətə çatdırılıb ki, ixrac missiyası çərçivəsində keçirilən görüşlərdə də bir sıra uğurlu nəticələr əldə edilib. Görüşlər zamanı Azərbaycanın “Brightman BMC” şirkəti konservləşdirilmiş məhsulların BƏƏ ölkələrinə və Banqladeşə ixracına dair “Al-maya” və “Lulu” marketlər şəbəkələri və “Al-Ghamdi” trading şirkəti ilə ilkin razılıq əldə edib. “Sunfood” şirkəti nar şirəsinin və çayın, “Səba” ət məhsullarının, “Kerkom” və “Azəri-bal” şirkətləri isə balın BƏƏ-yə ixracına dair “Al-maya”, “Lulu”, “Al-Qudva” marketlər şəbəkələri ilə danışıqlara başlayıblar. “Az-Granata” şirkəti nar şirəsinin Dubaya ixracına dair ilkin razılığa gəlib. Bundan başqa, Azərbaycanın “Azprotein” şirkəti BƏƏ-nin “Al-Tayeb” pərakəndə və topdansatış distribüter şirkəti və “Choitrams” marketlər şəbəkəsi ilə ət məhsullarının BƏƏ və digər Körfəz ölkələrinə ixracına dair razılıq əldə edib.

Bildirilib ki, Ciddə şəhərinə təşkil olunmuş ixrac missiyasında müsabiqə əsasında seçilmiş meyvə şirələri, quru meyvə, konservləşdirilmiş məhsullar, bal, çay, ət və süd məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən yerli şirkətlərin nümayəndələri iştirak ediblər. İxrac missiyası çərçivəsində sahibkarlar AZPROMO-nun və Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərindəki nümayəndəsinin birgə təşkilatçılığı ilə keçirilən ikitərəfli görüşlərdə iştirak ediblər. Görüşlərdə yerli məhsullarımız barədə məlumat verilib, məhsullarımızın market və bazarlarda satışı imkanları və distribüterlik məsələləri müzakirə olunub.

Görüşlərdə Azərbaycan məhsullarına, xüsusi ilə bal, ət və süd məhsullarına böyük maraq göstərilib. İkitərəfli görüşlər zamanı Azərbaycanın “Kerkom” şirkəti Azərbaycan balının, “Aqro-MTS” şirkəti isə ət məhsullarının Səudiyyə Ərəbistanına ixracı ilə bağlı bir neçə distribüter şirkətləri ilə danışıqlara başlayıblar. “Milk-Pro” şirkəti isə “Sunbulah Group” distribüter şirkəti ilə süd məhsullarının ixracına dair danışıqlar aparır. İxrac missiyaları çərçivəsində missiya iştirakçıları, həmçinin bazar və iri marketlər şəbəkələrində olublar.

Tədbirdə “Made in Azerbaijan” brendinin təşviqi ilə bağlı 2018-ci ildə nəzərdə tutulan tədbirlər barədə də məlumat verilib.

# Bakıda “Prezident İlham Əliyevin siyasəti və İslam həmrəyliyi: anlaşmadan əməkdaşlığa doğru” mövzusunda konfrans keçirilib

***Dekabrın 18-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə “Prezident İlham Əliyevin siyasəti və İslam həmrəyliyi: anlaşmadan əməkdaşlığa doğru” mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Bilik Fondunun, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA), Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təmsilçiləri, Milli Məclisin deputatları, elm və din xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.***




Konfransı açan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı çıxışında Prezident İlham Əliyev tərəfindən elan olunan “İslam Həmrəyliyi İli”nin önəminə toxunub. Dövlət Komitəsinin sədri vurğulayıb ki, bu gün İslam həmrəyliyi İslam dünyası üçün çox mühüm məsələdir. Prezident İlham Əliyevin bu istiqamətdə atdığı addımlar, söylədiyi fikirlər, verdiyi qərarlar bütün İslam dünyasında geniş əks-səda doğurmaqla bərabər, bizə gələcək fəaliyyətimizdə böyük stimul verəcək.

Komitə sədri qeyd edib ki, İslam həmrəyliyi yalnız İslam dünyasına xas olan məsələ deyil. Bu, eyni zamanda, dünyada mövcud olan müxtəlif dinlər arasındakı həmrəyliyə yönəlib. Dünya miqyasında dini ayrı-seçkiliyin gücləndiyi bir zamanda yaşayırıq. Bu səbəbdən dinlər və mədəniyyətlər arasında dialoqun bərqərar olması, həmrəyliyin gücləndirilməsi labüddür.

Bildirilib ki, il ərzində DQİDK, QMİ, AMEA-nın iştirakı ilə çoxsaylı tədbirlər keçirilib. Həm ölkə daxilində, həm də ölkə xaricində keçirilən tədbirlərdə İslam həmrəyliyi, onu zəruri edən şərtlər, bütövlükdə dünyada sülh, əmin-amanlıq və əməkdaşlığa göstərdiyi təsir geniş müzakirə edilib.

Bilik Fondunun Aparat rəhbəri İsaxan Vəliyev ölkəmizdə dini zəmində tolerantlığın olduğunu deyib, bu faktın beynəlxalq iqtisadi layihələrə də müsbət təsir göstərdiyini bildirib. Qeyd edib ki, ulu öndər Heydər Əliyev hələ

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən onun qarşısında duran əsas vəzifələrdən biri də İslam ölkələri ilə əlaqələr qurmaq idi. Ulu Öndər həm də İslam ölkələrinin özləri arasında müəyyən həmrəyliyin yaranmasına nail olmağa çalışırdı. 1993-cü ildə İslam Konfransı Təşkilatının toplantısındakı çıxışında Ümummilli Liderimiz Ermənistanın Azərbaycana təcavüzü, torpaqlarımızın bir hissəsinin zəbt edilməsi məsələsini İslam ölkələrinin nümayəndələrinin diqqətinə çatdırdı. Həmin toplantıda İslam ölkələri Azərbaycanın ərazi bütövlüyünü tanıyan qətnamə qəbul etdilər. Məhz Ulu Öndərin bu çıxışından sonra İslam ölkələrinin Azərbaycana diqqəti artmağa başladı. Ümummilli Liderin bu siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Milli Məclisin ictimai birliklər və dini durumlar komitəsinin sədri Siyavuş Novruzov bu gün dünyada İslamla bağlı məqsədli şəkildə mənfi fikir formalaşdırıldığını təəssüflə bildirib, islamofobiyaya qarşı mübarizənin gücləndirilməsinin vacibliyini vurğulayıb. O deyib: “Azərbaycan Prezidenti “İslam Həmrəyliyi İli”ni elan etməklə göstərdi ki, İslam sülh, əmin-amanlıq, qardaşlıq, dostluq dinidir. Dördüncü İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi bir daha sübut etdi ki, ölkəmizdə İslama yanaşma düzgün qurulub. Dövlətimizin İslam dininə, milli mənəvi dəyərlərimizə, tolerantlığa göstərdiyi qayğı çox yüksək səviyyədədir”.

Milli Məclisin komitə sədri təəssüflə bildirib ki, bəzən dünyada İslamı tamam başqa ad altında təqdim edirlər. Bəzən bu, subyektiv səbəblərdən olsa da, əksər hallarda bəzi ölkələr buna imkan yaradırlar ki, İslamı onların istədikləri kimi təqdim etsinlər. İslam daxilində olan müəyyən qüvvələr prinsiplərdən kənara çıxaraq öz qanunları ilə cəmiyyəti başqa istiqamətlərə yönəldirlər. Ona görə də, ilk növbədə, bunların qarşısı alınmalıdır.

Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, AMEA-nın Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədzadə, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin Pominov ölkəmizdə hökm sürən tolerantlıq mühiti, xalqımıza məxsus multikultural dəyərlər, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan münasibətlər haqqında söhbət açıblar. Bildirilib ki, Azərbaycan dünyəvi ölkədir və burada müxtəlif dini konfessiyaların nümayəndələri əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Xalqımız onların dilinə, dininə, mədəniyyətinə daim hörmətlə yanaşır.

Çıxış edənlər dövlətimizin din sahəsinə qayğısından, ulu öndər Heydər Əliyevin milli mənəvi dəyərlərimizin qorunması istiqamətində xidmətlərindən söz açıb, onun siyasətini davam etdirən Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi tədbirləri xüsusi vurğulayıblar.

# Sudan Respublikasının KİV-ləri AZƏRTAC ilə əməkdaşlığa can atır

***AZƏRTAC Sudan Respublikasının media qurumları ilə təcrübəsini bölüşməyə və əməkdaşlıq əlaqələri qurmağa hazırdır. Bu fikir Sudanın bir sıra telekanallarının və qəzetlərinin, həmçinin turizm şirkətinin nümayəndələri ilə AZƏRTAC-da keçirilən görüşdə səslənib.***



Sudanın Milli Televiziyası, “Əl-Şruq”, “Sudania24”, “Blue Nil” telekanalları, “Əl-Michər”, “İctimai rəy” qəzetləri jurnalistlərinin, “Abnos Co” turizm şirkəti təmsilçilərinin iştirak etdiyi görüşdə iki ölkənin daha da yaxınlaşması üçün mətbuatın sıx əlaqələr qurmasına ehtiyac olduğu vurğulanıb. Baş direktor Aslan Aslanov qeyd edib ki, Dünya Xəbər Agentlikləri Konqresi, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri təşkilatının sədri, həmçinin Avropa Xəbər Agentlikləri Alyansının üzvü kimi AZƏRTAC 100-dən çox agentliklə əlaqələr qurmağa müvəffəq olub. “Agentliyimiz, eyni zamanda, müxtəlif ölkələrin televiziya və qəzetləri ilə də əməkdaşlıq edir. Bu baxımdan AZƏRTAC Sudanın həm milli informasiya agentliyi, həm də televiziya və qəzetləri ilə əlaqələr yaratmağa, birgə layihələr həyata keçirməyə hazırdır. Bu, xalqlarımızın bir-birini daha yaxından tanımasına yol aça bilər”, - deyə baş direktor bildirib.

Qonaqlara Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonra keçdiyi inkişaf yolu barədə məlumat verilib. Qeyd olunub ki, müasir Azərbaycan dövlətinin banisi olan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Bakı hazırda dünyanı narahat edən bir çox qlobal problemlərin müzakirə olunduğu məkana çevrilib. Burada keçirilən mötəbər beynəlxalq forumlarda Nobel mükafatçıları, dövlət xadimləri, diplomatlar fəal iştirak edirlər. Ötən ilin noyabrında Dünya Xəbər Agentliklərinin Bakı Konqresində 80-dən çox ölkənin 200-dək təmsilçisi və media ekspertləri səmərəli müzakirələr aparıblar.

“Əl-Şruq” telekanalının əməkdaşı xanım İkram Məhəmməd Abdulla qeyd edib ki, Sudan hazırda dünyaya çıxış üçün mətbuatın imkanlarından geniş istifadə etməyə çalışır. “Bu istiqamətdə böyük təcrübəsi olan və dünyanın nüfuzlu media təşkilatlarına sədrlik edən AZƏRTAC ilə əlaqələrin qurulmasını çox istəyirik. Düşünürəm ki, təcrübə mübadiləsində də bizə çox kömək edə bilərsiniz”, - deyə o qeyd edib.

Görüşdə qonaqların Azərbaycandakı tolerantlıq mühiti, sağlamlıq turizmi ilə bağlı sualları cavablandırılıb. Onlar, həmçinin ölkənin turizm infrastrukturu barədə məlumatlandırılıb. Müzakirələrdə müasir medianın inkişaf tendensiyaları, birgə layihələrin reallaşdırılması imkanları, qarşılıqlı səfərlərin təşkili məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Sudanlı jurnalistlər AZƏRTAC-ın fotoinformasiya baş redaksiyası və videoxəbər xidmətinin fəaliyyəti ilə də tanış olublar.

# “Əl-Əhram” qəzeti: Misir media nümayəndələrinin Bakıya səfəri səmərəli və yaddaqalan olub

***Misirin geniş oxucu auditoriyasına malik “Əl-Əhram” qəzeti ölkənin aparıcı media nümayəndələrinin bu yaxınlarda Azərbaycana səfərinin nəticələrinə dair məqalə dərc edib. AZƏRTAC xəbər verir ki, “Əl-Əhram” qəzetinin aparıcı redaktoru Məhəmməd Həbib misirli jurnalistlərin ölkəmizə səfəri zamanı keçirdikləri görüşlərdən yazıb. Nümayəndə heyətinin Bakıya səfərini səmərəli və yaddaqalan adlandıran müəllif qeyd edir ki, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovla görüşdə Misir nümayəndə heyətinin üzvləri Azərbaycanda gedən inkişaf prosesləri, ölkədə multikulturalizm və dini tolerantlıq mühitinin formalaşması və dərinləşməsi barədə məlumatlandırılıblar.***




Görüşdə Əli Həsənov misirli qonaqlara dünyada İslam həmrəyliyinin gücləndirilməsi yolunda Azərbaycanın həyata keçirdiyi tədbirlərdən danışıb, müsəlman dünyasının üzləşdiyi problemlərin həlli üçün elmi biliklərin daha da artırılmasının önəmini vurğulayıb. Azərbaycanın da Misir kimi dünya sivilizasiyasının zənginləşməsinə töhfələr verdiyini qeyd edən Prezidentin köməkçisi bu uğurların təbliği üçün müsəlman ölkələrinin mətbuat nümayəndələri, o cümlədən Azərbaycan və Misir KİV-ləri arasında əməkdaşlığın vacibliyinə diqqəti cəlb edib.

Görüşdə Əli Həsənov misirli qonaqlara əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, həmrəylik, tolerantlıq, multikulturalizm, mədəniyyətlərarası dialoqa əsaslanan siyasətin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsindən danışıb, Azərbaycanın öz tolerantlıq modelini, mədəniyyətlər və sivilizasiyalararası dialoqu bütün dünyada fəal təbliğ və təşviq etməsindən söz açıb. Əli Həsənovun Azərbaycanda mövcud olan tolerantlıq mühiti barədə fikirlərinə yer ayıran müəllif bildirir ki, burada təkcə müxtəlif məzhəblərin nümayəndələri deyil, həmçinin müxtəlif dinlərə mənsub insanların qarşılıqlı anlaşma və qardaşlıq şəraitində yaşaması bir çox ölkələr üçün nümunədir.

Jurnalist Məhəmməd Həbib misirli nümayəndələrlə Bakı Dövlət Universitetində (BDU) keçirilmiş görüşdən də bəhs edir. O yazır ki, BDU-nun rektoru, akademik Abel Məhərrəmov müsəlman alimlərin, o cümlədən misirli alimlərin dünya elminə verdikləri töhfələri diqqətə çatdırıb. Görüşdə dünyada nüfuz sahibi olan elm adamlarının yetişməsi üçün əlverişli elmi mühitin vacibliyi qeyd edilib.

Məqalədə Azərbaycana səfər etmiş misirli jurnalistlərin də qatıldığı “İslam həmrəyliyinin gücləndirilməsində medianın rolu” mövzusunda beynəlxalq konfransın əhəmiyyətindən söhbət açılır. Beynəlxalq Avrasiya Mətbuat Fondunun və İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilmiş konfransda səsləndirilmiş fikirlərin İslam aləmi üçün aktuallığını qeyd edən müəllif çıxışlardan sitatlar gətirir. Bildirilir ki, konfransda çıxış edən Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Bəhruz Həsənov ölkəmizin İslam həmrəyliyinin, multikulturalizmin gücləndirilməsi istiqamətində mühüm işlər gördüyünü diqqətə çatdırıb, terror və belə mənfi halların qarşısının alınması üçün müsəlman aləminin birliyinin zəruriliyini qeyd edib. Çıxışlarda İslam həmrəyliyinin İslam ümməti üçün tarixi önəm daşıdığı, müsəlman ölkələri arasında həmrəyliyin gücləndirilməsinin hazırkı vəziyyətdə xüsusilə zəruri olduğu, bu istiqamətdə medianın da üzərinə mühüm vəzifələrin düşdüyü vurğulanıb.

“Əl-Əhram” qəzetinin aparıcı redaktoru nümayəndə heyətinin Misirin Azərbaycandakı səfiri xanım Suzan Cəmil Nuh və səfirliyin mədəniyyət attaşesi Əhməd Sami əl-Aydi ilə görüşündən də söhbət açır. Məlumat verir ki, səfir ölkələrimiz arasında əlaqələrin tarixindən danışıb. Misirlə Azərbaycan arasında təhsil və mədəniyyət əlaqələrindən bəhs edən Əhməd Sami əl-Aydi Azərbaycanın bir çox ali təhsil müəssisələrində, o cümlədən ADA Universitetində misirli tələbələr üçün təqaüdlər təqdim edildiyini, eləcə də Qahirə Universitetində kimya mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələrin AMEA-nın Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda təcrübə keçdiklərini diqqətə çatdırıb.

## “Avropa İttifaqı ilə Azərbaycan arasında sazişin imzalanması istiqamətində iş davam edir”



Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında hərtərəfli sazişin imzalanması istiqamətində iş davam etdirilir. AZƏRTAC xəbər verir ki, bunu Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas Bakıda Beynəlxalq Miqrant Gününə həsr edilmiş tədbirdə çıxışı zamanı deyib. Təmsil etdiyi qurumun Azərbaycanın Dövlət Miqrasiya Xidməti və Dövlət Sərhəd Xidməti ilə birlikdə layihələr həyata keçirdiyi vurğulayan K.Yankauskas deyib: “Biz istəyirik ki, daha çox avropalı Azərbaycana gəlsin, daha çox azərbaycanlı isə Avropaya getsin. Bu istiqamətdə əməkdaşlığımızı genişləndirmək istəyirik”.

## Şarl Aznavur: “Qanunsuzluq halları Ermənistanda investisiya qoyuluşuna əngəl yaradır”



Ermənistanda kimsə 2 yumurta oğurlayırsa onu mütləq tutub cəzalandırırlar, amma milyonlarla oğurluq edənlər cəzasız qalır. Bu sözləri Parisdə yaşayan erməni əsilli müğənni Şarl Aznavur Ermənistandakı vəziyyət barədə “Nouvelles d’Armenie” qəzetinə verdiyi müsahibəsində deyib. Ermənistanda hökm sürən qanunsuzluqlardan danışan müğənni nəzərə çatdırıb ki, belə hallar ölkədə investisiya qoyuluşunun qarşısını alır. Müğənni bildirib ki, vaxtı ilə Ermənistanın dostlarının sayı çox idi. İndi isə onların sayı azalıb və Ermənistana sərmayə yatırmaq istəmirlər.

## Elmar Məmmədyarov Vladimir Doroxin ilə görüşüb



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Rusiyanın ölkəmizdəki səfiri Vladimir Doroxin ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Rusiya arasında münasibətlərin hazırkı səviyyəsindən, yüksək səviyyəli səfərlər mübadiləsindən məmnunluq ifadə olunub.

Səfir V.Doroxin fəaliyyət müddəti ərzində Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsi istiqamətində səylə çalışdığını bildirib. O, ölkələrimiz arasında münasibətlərin səmimi xarakterinin bundan sonra da davam etdiriləcəyinə, qazanılmış təcrübənin hər iki dövlət və xalqların maraqları naminə istifadə olunacağına əminliyini vurğulayıb. V.Doroxin, həmçinin ölkəmizin sabitliyi və tərəqqisi istiqamətində Azərbaycan hökumətinə uğurlar arzulayıb. Nazir Elmar Məmmədyarov fəaliyyəti müddətində səfir Vladimir Doroxinin dövlətlər arasında münasibətlərin inkişafına töhfə verdiyini bildirərək, ona təşəkkür edib və gələcək fəaliyyətində uğurlar arzulayıb.

## “Azərbaycan “Ekspo 2025” sərgisinə ev sahibliyi etməyə layiqdir”



Azərbaycan “Ekspo 2025” Ümumdünya Sərgisinə ev sahibliyi etməyə layiqdir və Türkiyə bu məsələdə qardaş ölkəyə dəstək verəcək. Bu fikri AZƏRTAC-a məxsusi açıqlamasında Türkiyə xarici işlər nazirinin müavini Əhməd Yıldız söyləyib. XİN müavini deyib ki, Azərbaycan bölgədə çox böyük uğurlara imza atıb, uğurlu beynəlxalq layihələrin həm müəllifi, həm də iştirakçısıdır. Eyni zamanda, Azərbaycan bir sıra mötəbər beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edib. Ə.Yıldız deyib: “Hesab edirəm ki, bu sahədə böyük təcrübəyə malik Azərbaycan “Ekspo 2025” sərgisinə də uğurla ev sahibliyi edə bilər.

İnanıram ki, Azərbaycana dəstək verən ölkələr çox olacaq. Türkiyə bu məsələdə də bütün imkanlardan istifadə etməklə Azərbaycanın yanındadır”.

# Müasir dünyada miqrasiya prosesləri: Azərbaycan reallığı kontekstində

## *18 dekabr - Beynəlxalq Miqrant Günüdür*

***Hər il dekabrın 18-i dünyada Beynəlxalq Miqrant Günü kimi qeyd olunur. AZƏRTAC bu günlə əlaqədar Dövlət Miqrasiya Xidmətinin rəisi Firudin Nəbiyevin məqaləsini təqdim edir.***



***Firudin Nəbiyev, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, II dərəcəli dövlət miqrasiya xidməti müşaviri***

Bu gün tarixinin ən möhtəşəm inkişaf və qüdrətli dövlətçilik dövrünü yaşayan Azərbaycanın əldə etdiyi nailiyyətlər ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin isə uğurla davam etdirdiyi milli intibah siyasətinə və ictimai sabitliyə söykənir.

Məlum olduğu kimi, bu ilin 9 ayında Azərbaycanın valyuta ehtiyatları artıb və hazırda bu rəqəm 42 milyard dollar səviyyəsindədir. İlin əvvəlindən valyuta ehtiyatlarımız 4,5 milyard dollar artıb. Qeyri-neft iqtisadiyyatımız 2,5 faiz artıb. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin və görülən işlərin nəticələridir.

Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə dünyada 35-ci yerə (MDB ölkələri sırasında birinci yer) layiq görüb. Dünyada iqtisadi-maliyyə böhranının davam etdiyi bir şəraitdə ölkəmizin iqtisadiyyatı yüksək qiymət alıb.

Azərbaycanın inkişafının və dünyada etiraf edilən sabit ölkə imicinin nəticəsi olaraq, artıq uzun illərdir ki, respublikamız ən mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir. Hər bir tədbirdə dövlətimizin, şəxsən Prezident İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ali diqqəti və təşkilatçılığı sayəsində genişmiqyaslı, möhtəşəm fəaliyyət ortaya qoyulur.

Ümumiyyətlə, bu il keçirilmiş IV İslam Həmrəyliyi Oyunları, Formula-1 Azərbaycan Qran-Prisi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycanın yaratdığı növbəti mükəmməl təşkilatçılıq modeli idi. Bu tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycan Respublikasının tolerantlıq və multikulturalizm prinsiplərinə bağlılığının bariz nümunəsidir. Əlbəttə, Prezident İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi də təsadüfi deyildir, bunun çox böyük ictimai-siyasi, beynəlxalq və ideoloji əhəmiyyəti var. Çünki bu il çərçivəsində görülən işlərdə təkcə din amili nəzərə alınmayıb, bu prosesə daha geniş spektrdən yanaşılıb.

Daha bir əlamətdar hadisə aparıcı beynəlxalq enerji şirkətlərinin konsorsiumu ilə yeni meqaneft müqaviləsinin imzalanmasıdır. Bu müqavilə Azərbaycana nəhəng neft yataqlarının 2050-ci ilə qədər işlənməsinə imkan verəcək. Sabit neft istehsalat profilini saxlamaq üçün on milyardlarla əlavə investisiya yatırılacaq.

Oktyabrın 30-da tarixi, strateji əhəmiyyətli layihə olan Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı isə xüsusilə əlamətdar oldu. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Qazaxıstan Respublikasının Baş naziri Bakıtjan Saqintayev, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, həmçinin Tacikistan və Türkmənistan respublikalarından nümayəndə heyətlərinin iştirakı ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında təntənəli mərasim keçirildi. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə dair Saziş 2007-ci il fevralın 7-də Tbilisidə imzalanıb. Elə həmin ilin noyabrında Gürcüstanın Marabda məntəqəsində dəmir yolu xəttinin təməli qoyulub. 2008-ci ilin iyulunda isə Qars şəhərində Qars-Gürcüstan sərhədi hissəsinin tikintisinin təməlqoyma mərasimi keçirilib. Ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür. Dəmir yolu xəttinin 263 kilometri Gürcüstandan keçir. Yolun 79 kilometri isə Türkiyə ərazisindədir.

Proqnozlara görə, Bakı-Tbilisi-Qars dəmir yolu ilə üçüncü istismar ilində 3-5 milyon ton, beşinci istismar ilində 6-8 milyon ton yük, bundan sonra isə ildə 3 milyon sərnişin və 17 milyon ton yük daşınacaq. Bu dəmir yolu ilə bir günə Qarsa, iki gün yarıma isə İstanbula getmək mümkün olacaq. Bu isə regionda turizmin inkişafına güclü təsir göstərəcək. Bütün bunlar Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əhəmiyyətini, onun təhlükəsizliyini, etibarlılığını, sürət və vaxt tezliyini aydın göstərir. Belə ki, bu yol istifadəyə verildəndən sonra mövcud yükdaşımalarla müqayisədə zaman fərqi iki dəfəyədək azalacaq.

Müstəqillik tariximizin möhtəşəm layihələrindən birinin reallaşmasına rəhbərlik etməklə Azərbaycan növbəti dəfə təsdiqlədi ki, regional və qlobal əhəmiyyətli layihələri uğurla həyata keçirə bilər. Bunu Bakı-Tbilisi-Qars dəmir yolunun geosiyasi və geoiqtisadi səmərəsinə nəzər saldıqda da görürük. Belə ki, bu dəmir yolu xəttinin işə düşməsi regionda sabitliyə və iqtisadi inkişafa böyük töhfədir.

Bu gün hər birimiz dinc, təhlükəsiz, sabit ölkədə yaşadığımıza, özümüzün və yaxınlarımızın həyatı üçün hansısa narahatlıq duymadığımıza görə Ulu Öndərin əsasını qoyduğu milli inkişaf siyasətinə minnətdarıq və miqrasiya orqanlarının hər bir əməkdaşı bu nailiyyətlərin daha geniş miqyasda davamlılığının təminatçısı olan Prezident İlham Əliyevin müdrik fəaliyyətini birmənalı dəstəkləyir.

Məlum olduğu kimi, yaşadığımız dövr çox çətin, kritik, təlatümlü hadisələrlə zəngindir. 2017-ci ildə dünyada təhlükəli meyillər daha da güclənib. Həm bizim bölgəmizdə, həm də digər regionlarda narahatedici məqamlar kifayət qədər çoxdur. Müharibələr, münaqişələr, qanlı toqquşmalar, böhranlar - əfsuslar olsun ki, bugünkü beynəlxalq mənzərənin əlamətləri bunlardır. Belə ki, əgər 30 il əvvəl dünyada 30 milyon qaçqın və məcburi köçkün, 25 münaqişə zonası var idisə, bu gün dünyada qaçqın, məcburi köçkünlərin sayı 65 milyonu keçib və münaqişəli zonaların sayı isə 70-ə qədərdir. Artıq dünyanın bir çox qaynar nöqtələrində baş verən qarşıdurma və müharibələr geniş, davamlı xarakter alıb. Yerli hökumətlər isə büdcə gəlirlərini artırmaq, əhalinin sosial rifahını yüksəltmək əvəzinə daxili sabitliyi təmin etmək uğrunda mübarizə aparmalı olurlar. İndi məsələnin digər tərəfi ondan ibarətdir ki, Avropa ölkələrində qəbul edilən qanunlar insanların irqindən, dinindən asılı olmayaraq, hər kəsə bərabər hüquqlar, yüksək həyat şəraiti nəzərdə tutsa da, bir sıra ölkələr miqrantlara dini mənsubiyyətinə görə selektiv yanaşır. Azərbaycan isə daim sülhsevər siyasət yeridir, ölkələri həmişə həmrəyliyə dəvət edir, bütün dünyaya nümunə göstərir.

Bu gün ərazilərimizin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi və bir milyondan artıq soydaşımızın etnik təmizləməyə məruz qalması təhlükəsizliyimiz üçün ən başlıca təhdiddir. Bununla belə, Ermənistanın Azərbaycan ərazilərinin hərbi işğalını siyasi müstəviyə daşımaq və hətta işğala öz müqəddəratını təyin etmək donu geyindirərək legitimləşdirmək cəhdləri iflasa uğrayıb. Beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycan ərazilərini hərbi yolla işğal etməsinin nəticələrini tanımayıb, əksinə, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrində və digər beynəlxalq qurumların sənədlərində Azərbaycan ərazilərinin işğalı və gücdən istifadə edərək dövlətlərin tanınmış sərhədlərinin dəyişdirilməsi cəhdləri pislənilir. Beynəlxalq ictimai rəydə Ermənistanın işğalçılıq siyasəti və erməni yalanları barədə aydın fikir formalaşdırılıb. Alxanlı kəndində törətdiyi təxribatla Ermənistan növbəti dəfə özünü ifşa etdi. Balaca Zəhranın və onun nənəsinin öldürülməsi erməni faşizminin eybəcər sifətini bütün dünyaya göstərdi.

Prezident İlham Əliyev BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışındakı çıxışında bəyan edib ki, "Ötən ilin aprelində Ermənistan şəhər və kəndlərimizə hücum edərək, təmas xəttində növbəti hərbi cinayət törətdi. Bu hücum nəticəsində 6 dinc azərbaycanlı qətlə yetirildi, onların sırasında bir uşaq da var idi. Bundan əlavə, 26 mülki şəxs yaralandı. Yüzlərlə evlərimiz dağıdıldı. Azərbaycan öz vətəndaşlarını müdafiə etməli oldu. Uğurlu əks-hücum nəticəsində Azərbaycan 3 işğal olunmuş rayonda - Ağdərə, Füzuli və Cəbrayılda bir neçə əraziləri azad etdi və öz bayrağını azad edilmiş ərazilərdə qaldırdı. Ermənistan rəhbərliyi bu dərsi yaddan çıxarmamalıdır. Əks təqdirdə, Ermənistanın növbəti təxribatının nəticələri onlar üçün daha ağrılı olacaq.

Beynəlxalq ictimaiyyət erməni faşizminə və terroruna son qoymalıdır. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə sadiqdir, lakin, eyni zamanda, Ermənistanın hərbi təxribatı davam edərsə, ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq, öz vətəndaşlarını qoruyacaq və lazım gələrsə, təcavüzkarı 2016-cı ilin aprelində olduğu kimi yenidən cəzalandıracaq". Ali Baş Komandanın bu qətiyyətli mövqeyi bir daha onu deməyə əsas verir ki, biz öz torpaqlarımıza qayıdacağıq.

2016-cı ilin aprel döyüşləri zamanı Prezident İlham Əliyevin rəhbərliyi ilə ordumuz tərəfindən Lələtəpə yüksəkliyinin azad edilməsindən sonra Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində yaşayışın bərpa edilməsi üçün imkan yarandı. Azərbaycan Prezidenti tərəfindən kənddə evlərin, müvafiq infrastrukturun tikintisi, yolun çəkilişi ilə bağlı sərəncamlar imzalandı. Artıq Cocuq Mərcanlıda həyat öz qaydasına düşüb. Bu il bu kənddə Bilik Günü qeyd olundu, ilk zəng çalındı. Bu, Böyük Qayıdışın başlanğıcıdır. Aprel zəfəri isə uzun illər erməni terrorundan əziyyət çəkən Azərbaycan Ordusunun hərb tarixində şanlı səhifədir.

Cənab İlham Əliyev prezidentlik müddətinin əvvəlində - 2004-cü ildə deyib ki, "Biz qara qızılı insan kapitalına çevirməliyik". Azərbaycan hökuməti o vaxtdan təhsil və səhiyyə infrastrukturuna böyük sərmayə yatırıb. Qaçqınların və məcburi köçkünlərin yerləşdirilməsi sahəsində müvafiq işlər görülüb, 100-ə yaxın qəsəbə salınıb, onların 250 min nəfəri yeni ev və mənzillərlə təmin olunub və bu proses davam etməkdədir.

Məlum olduğu kimi, 2001-ci il sentyabrın 11-də ABŞ-da törədilmiş terror hadisəsi XXI əsrdə beynəlxalq terrorizmin sərhəd tanımayacağı fikrini dəqiqləşdirdi və bir çox ekspertlər tərəfindən irəli sürülən "terrorizm XXI əsrdə daha təhlükəli formada özünü büruzə verəcək" tezisinin reallaşdığını göstərdi. Bu terror aktında 4000 insan həlak oldu, Ümumdünya Ticarət Mərkəzinin partladılması nəticəsində Nyu-York şəhər iqtisadiyyatına 95 milyard dollar ziyan dəydi, 83 min insan iş yerini itirdi. Tarixdə miqyasına görə ən böyük bu terror aktından sonra dünyada miqrasiya proseslərinin idarə olunmasının təkmilləşdirilməsinə diqqət daha da artırıldı.

İqtisadi inkişafı ilə əlaqədar olaraq respublikamıza miqrasiya edənlərin sayındakı artım, həm də ölkəmizin həssas bölgədə yerləşməsi miqrasiya proseslərinin idarə olunmasının təkmilləşdirilməsini 2000-ci illərin əvvəllərində Azərbaycan üçün də aktual etdi. Söz yox ki, Avropa ilə Asiyanın qovuşuğunda yerləşən qədim Azərbaycan torpağında müxtəlif dinlərə, ayrı-ayrı mədəniyyətlərə mənsub insanlar tarixboyu əmin-amanlıq şəraitində yaşamışdır. Azərbaycan xalqı özünün dərin tarixi köklərə malik zəngin tolerantlıq və multikulturalizm ənənələrini bu gün də qoruyur, sivilizasiyalararası dialoqa, islamdaxili və konfessiyalararası həmrəyliyə öz töhfələrini verir. Həmçinin milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Çünki burada siyasi irادə böyük önəm daşıyır. Dünyada faciəvi hadisələrin, dini və milli zəmində radikallaşmanın, ekstremizmin, mənəvi dəyərlər böhranının, miqrant probleminin yaşandığı bir dövrdə, Azərbaycandakı multikultural həyat tərzi nadir bir mədəniyyət nümunəsidir. Bu, bizim həyat tərzimizdir.

***Ardı Səh. 11***

# Müasir dünyada miqrasiya prosesləri: Azərbaycan reallığı kontekstində

*18 dekabr - Beynəlxalq Miqrant Günüdür*

Əvvəli Səh. 10

Biz bunu örnək olaraq, dünyaya təqdim edirik və fəxr edirik ki, bu elitar ideyanın müəllifi Prezident İlham Əliyevdir. Bir sözlə, dünyada irqi, milli, etnik və digər zəmində baş verən qarşıdurmalar fonunda, Azərbaycanın səyləri sülhə və onun qorunmasına xidmət edir. İndiyə qədər ölkəmizdə miqrantlara münasibətdə milli, etnik və dini zəmində hüquq pozuntusu qeydə alınmayıb. 2004-cü il iyulun 13-də təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyası"nda bəyan edildiyi kimi, Azərbaycanda miqrasiya proseslərinin tənzimlənməsinin əsas məqsədini ölkəmizin milli təhlükəsizliyinin və sabit sosial-iqtisadi, demoqrafik inkişafının təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, respublika ərazisində əhalinin rasional yerləşdirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinin nizamlanması, qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına təhlükəsiz şəraitdə və ləyaqətlə qayıtmasının təmin edilməsi, beynəlxalq standartlara uyğun sığınacaq üçün milli müraciət sisteminin yaradılması, miqrantların intellektual və əmək potensialından istifadə, idarə olunmayan miqrasiya proseslərinin mənfi təsirinin aradan qaldırılması, insan ticarəti də daxil olmaqla qeyri-qanuni miqrasiyanın qarşısının alınması, gözlənilməz kütləvi miqrasiyaya səbəb ola biləcək amillərin öyrənilməsi və onların optimal həlli üçün vaxtında kompleks tədbirlərin hazırlanması məsələləri təşkil edir.

Dövlət Miqrasiya Xidməti yaradıldığı vaxtdan miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi məqsədi ilə zəruri normativ hüquqi aktlar qəbul edildi, bir sıra təşkilati tədbirlər həyata keçirilməklə müəyyən edilmiş məqsədlərə nail olundu. Hazırda dünyada cərəyan edən qloballaşma fonunda Azərbaycan regionda gedən miqrasiya proseslərinə təsir etmək, ölkə ərazisinə olan miqrasiya axınlarını nəzarətdə saxlamaq və ölkə daxilində miqrasiya proseslərini yerli qanunvericiliyə uyğun idarə etmək və tənzimləmək üçün fəal miqrasiya siyasəti yeridir.

Xidmət əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı, ölkədə müvəqqəti olma müddətlərinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, vətəndaşlığa qəbul, xitam, bərpa, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsi, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin verilməsi və mövcud iş icazələrinin müddətlərinin uzadılması kimi funksiyaları yerinə yetirir.

Bu gün əminliklə deyə bilərik ki, qanuni əsaslarla ölkəyə gələn və respublikada olmasını və yaşamasını leqallaşdıran əcnəbilərin, iş icazəsi əsasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əməkçi miqrantların hüquqlarının yüksək səviyyədə qorunması, qanunsuz miqrasiya ilə bağlı lazımi tədbirlər Xidmət tərəfindən müvəffəqiyyətlə icra olunmaqdadır. Çünki Prezident İlham Əliyevin bu Xidmətin qarşısında qoyduğu vəzifələrdən biri də odur ki, "Biz miqrasiya siyasətimizi daha da gücləndirməliyik, çox ciddi sistem yaratmalıyıq. Hər bir gələn xarici vətəndaş qeydiyyatdan keçməlidir. Qanunsuz bir adam da burada işləməməlidir. Biz istənilən anda bilməliyik ki, hansı xarici vətəndaş hansı gündə haradadır və nə ilə, hansı işlə məşğuldur".

Miqrasiya proseslərinin vahid və çevik prosedurlar əsasında tənzimlənməsinə, sənədləşmənin sadələşdirilməsinə xidmət edən bir sıra tədbirlər də öz bəhrəsini verir. Həmin tədbirlərdən biri də "Miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2009-cu il martın 4-də imzalanmış Fərman oldu. Adıçəkilən Fərmanın tətbiqi ölkədə miqrasiya proseslərinin daha çevik və işlək mexanizmlər əsasında idarə edilməsinə, bu sahədə operativliyin təmin olunmasına və həllini gözləyən problemlərin aradan qaldırılmasına imkan verdi. Fərmana əsasən, 2009-cu il iyulun 1-dən miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiq edilməsinə başlanıldı və bu prinsip üzrə vahid dövlət orqanının səlahiyyətləri Dövlət Miqrasiya Xidmətinə həvalə edildi.

Qeyri-qanuni miqrasiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, Xidmətin fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə Prezident İlham Əliyevin 2009-cu il aprelin 8-də imzaladığı Fərmanla Dövlət Miqrasiya Xidmətinə hüquq mühafizə orqanı statusu verildi.

Azərbaycanda miqrasiya proseslərinin nəzarətdə saxlanılması ilk növbədə, milli təhlükəsizliyin hərtərəfli təmini baxımından aktuallıq kəsb edir. Çünki, tənzimlənməyən miqrasiya proseslərinin mənfi təsirinin qarşısının alınması ciddi amildir. Amma şübhəsiz ki, istənilən halda belə, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, qanunçuluq və humanizm prinsipləri əsas götürülməlidir. 2009-cu ildən miqrasiya idarəetmə sisteminin inkişafı məqsədilə qanunvericiliyə edilmiş dəyişikliklərə uyğun olaraq, həvalə edilmiş səlahiyyətlər çərçivəsində Dövlət Miqrasiya Xidməti qanunsuz miqrasiyaya qarşı mübarizədə iştirak edir, miqrasiya qanunvericiliyinin pozulması ilə bağlı inzibati xətalar haqqında işlərə baxır, zəruri hallarda qanunvericiliyi pozmuş əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri inzibati qaydada tutur.

Bu gün Azərbaycan sabitlik adasıdır. Elə bunun nəticəsidir ki, dünyada Azərbaycana maraq bu qədər artıb. Keçən il turistlərin, xarici vətəndaşların ölkəmizə səfərləri xeyli artmışdır və bu tendensiya bu gün də davam edir. Belə ki, 2017-ci ilin 9 ayı ərzində 2 milyon 72 min 76 halda 1 milyard 243 min 346 nəfər əcnəbinin Azərbaycan Respublikasının ərazisinə girişi, 2 milyon 77 min 544 halda isə 1 milyon 241 min 5 nəfər əcnəbinin ölkədən çıxışı qeydə alınıb.

Dövlət Miqrasiya Xidmətinə Azərbaycan Respublikası ərazisində olma və yaşama icazələrinin alınması, haqqı ödənilən əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin alınması, qaçqın statusunun müəyyənləşdirilməsi, Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, bərpa, xitam və vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı 66 min 828 müraciət daxil olub.

2017-ci ilin 9 ayı ərzində "Çağrı Mərkəzi" şöbəsinə ümumilikdə 79 min 614 zəng daxil olub. 2013-cü il avqustun 1-dən qüvvəyə minmiş Miqrasiya Məcəlləsinin 21-ci maddəsinə əsasən əcnəbi və ya vətəndaşlığı olmayan şəxs ölkədə 10 gündən artıq qalmaq istədiyi halda 10 gün ərzində olduğu yer üzrə qeydiyyata düşməlidir. Bunun üçün əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qaldığı mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və ya digər belə ictimai yerlərin müdiriyyəti və ya mənzilin, digər yaşayış sahəsinin sahibi, bir sözlə, qəbul edən tərəf əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölkəyə gəldiyi vaxtdan 10 gün ərzində olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi və onun pasportunun və yaxud digər sərhədkeçmə sənədinin surətini Dövlət Miqrasiya Xidmətinin rəsmi internet səhifəsində (www.migration.gov.az) elektron xidmətlər vasitəsilə və ya şəxsən regional miqrasiya idarələrinə təqdim etməlidir. Əcnəbilər olduğu yerdən getdikdə, qəbul edən tərəf və ya şəxs özü bu barədə miqrasiya orqanlarına məlumat verməli və bu məlumat əsasında onlar olduğu yer üzrə qeydiyyatdan çıxarılmalıdırlar. Eyni zamanda, əcnəbi olduğu yeri dəyişdikdə, onun nəzərdə tutulmuş qaydada yeni olduğu yer üzrə qeydiyyata alınması üçün müraciət edilməlidir. Qeydiyyat müddəti başa çatdıqda, əcnəbilər qeydiyyatdan çıxarılmış hesab edilirlər.

Xatırladım ki, təkcə bu ilin 9 ayında 633 min 827 əcnəbi və vətəndaşlığı olmayan şəxs olduğu yer üzrə qeydiyyata alınmaqla bağlı müraciət edib.

Bəzi şəxslər isə bu qeydiyyata formal yanaşaraq tanımadığı, haqqında heç bir məlumatı olmayan şəxsləri ünvanına qeydiyyata aldırır, araşdırma zamanı məlum olur ki, həmin əcnəbi ümumiyyətlə, qeydiyyatda olduğu ünvanda yaşamır. Bəzi hallarda da insanlar qanunvericiliyin bu tələbinə laqeyd yanaşır, əcnəbinin ümumiyyətlə, qeydiyyata düşməsini təmin etmirlər. Şübhəsiz ki, Məcəllənin tələbi pozulduğuna görə inzibati məsuliyyət yaranır və hər iki tərəfə - həm qonağa, həm də onu qəbul edən fiziki və yaxud hüquqi şəxsə cərimə tətbiq edilir. İnzibati Xətalar Məcəlləsinin (İXM) 575.3-cü maddəsində isə Azərbaycan Respublikasında əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri qəbul edən, onlara xidmət göstərilməsini və ya onların işə qəbul olunmasını təmin edən və onların ölkəmizdə olması, yaşaması və ya respublikanın ərazisindən tranzitlə keçməsi şərtlərinə əməl edilməsi ilə əlaqədar vəzifələri yerinə yetirən müəssisə, idarə və ya təşkilatların vəzifəli şəxsləri tərəfindən əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin qeydiyyata alınmasının və qeydiyyatdan çıxarılmasının, onlara Azərbaycanda olma və ya yaşama hüququ verən sənədlərin rəsmiləşdirilməsinin Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydalarının pozulmasına görə - vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir.

İXM-nin 577-ci maddəsinə əsasən isə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə yaşayış sahəsi vermiş Azərbaycan vətəndaşları və ya ölkəmizdə yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada onların vaxtında olduğu yer üzrə qeydiyyata alınması və qeydiyyatdan çıxarılması üçün tədbirlər görülməməsinə görə - üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə nəzərdə tutulur.

Bu gün DMX Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə hər bir əcnəbinin və vətəndaşlığı olmayan şəxsin hansı tarixdə ölkəyə daxil olduğuna, harada yaşadığına, işlədiyinə və nə vaxt ölkəni tərk etdiyinə tam nəzarət edir. Amma qanunun tələbinə əməl etməyərək qeydiyyatsız yaşayıb qanunsuz miqranta çevrilən əcnəbiyə təkcə inzibati xəta törətmiş şəxs kimi baxılması dünyada baş verən hadisələr fonunda mükəmməl yanaşma hesab olunmaya bilər. Çünki burada dövlətin, vətəndaşların, insanların təhlükəsizliyi məsələsi də aktuallaşır.

Qeyd edim ki, DMX səlahiyyətləri çərçivəsində 9 ay ərzində qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində müvafiq tədbirlər həyata keçirib və ümumilikdə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının miqrasiya sahəsində, o cümlədən inzibati qanunvericiliyinin tələblərinin pozulması ilə bağlı 17 min 76 qərar qəbul edilib.

Söz yox, bu gün Azərbaycanda təhlükəsizlik tam təmin edilib və sabitlik mövcuddur. Dövlətin müvafiq strukturları öz fəaliyyətlərini çox peşəkarlıqla yerinə yetirirlər. Lakin təkcə xüsusi xidmət, təhlükəsizlik və hüquq mühafizə orqanları yox, həm də hər bir vətəndaş ölkənin təhlükəsizliyi üçün ayıq-sayıq olmalı, ən azı qanunla müəyyən olunmuş, məsələn, əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin olduğu yer üzrə qeydiyyata düşməsini təmin etmək və qeydiyyat müddəti başa çatdıqda, yaxud yaşayış yerini dəyişdikdə Dövlət Miqrasiya Xidmətinə məlumat vermək kimi adi bir vəzifəsini layiqincə yerinə yetirməlidir. Bu təqdirdə həm qonağımız, həm də ölkəmiz təhlükəsiz olacaq.

Bilirsiniz ki, cənab Prezidentin ölkəmizdə prioritet sahə kimi müəyyənləşdirdiyi turizmin inkişafı üçün əsaslı işlər görülür. Məsələn, "ASAN viza"nın tətbiqi.

Əlbəttə, Xidmət bütün bunlarla bağlı öz məsuliyyətini dərk edir. Şübhə yoxdur ki, miqrasiya orqanları əməkdaşları da çalışırlar ki, Xidmətin üzərinə düşən vəzifələri layiqincə yerinə yetirsinlər. Ölkəmizə təşrif buyuran əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin respublikamıza sərbəst şəkildə gəlməsinin və getməsinin təşkili, miqrasiya ilə bağlı məsələlərin operativ həllini təmin etsinlər.

# “700 yüz min ağac əkək” kampaniyası davam edir

## Quba

YAP Quba rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar “700 yüz min





ağac əkək” kampaniyasını davam etdirir. Aksiya ilə əlaqədar YAP Quba rayon təşkilatının idarə heyətinin iclasında II mərhələnin tədbirlər planı təsdiq edilib. I mərhələ 2017-ci il noyabrın 11-dən dekabrın 12-dək, II - mərhələ isə 2018-ci il martın 1-dən 31-dək keçirilməsi nəzərdə tutulmuşdur. Tədbirlər planına əsasən, Quba Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin yaxından köməyi ilə partiya üzvlərinin sayına uyğun olaraq 8000 ədəd ağac əkilməsi planlaşdırılıb.

Artıq I mərhələ başa çatıb və 4305 ədəd ağac əkilmişdir. Kampaniyanın II mərhələsinə isə martın 1-dən start veriləcək.

## Ağdam

Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar “700 yüz min ağac əkək” kampaniyası çərçivəsində YAP Ağdam rayon təşkilatı ağacəkmə aksiyası keçirib.





Aksiyada YAP Ağdam rayon təşkilatının şura üzvləri, qadınlar şurası, gənclər birliyinin fəalları və ərazi ilk partiya təşkilat sədrləri iştirak ediblər. Rayonun Bayraq Meydanı ərazisində və Soltanbud meşəsində 1000 ədəd ağac əkilib. Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatı ağacəkmə kampaniyası dövründə, tədbirlər planına uyğun olaraq, mərhələli şəkildə 6500 ədəd ağac əkməyi planlaşdırır.

## Ağcabədi

Ağcabədi rayonunda YAP fəallarının iştirakı ilə Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə “700 yüz min ağac əkək” kampaniyası çərçivəsində növbəti ağacəkmə aksiyası keçirilib.

Ağcabədi Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin müəyyən etdiyi meşə ərazisində keçirilən ağacəkmə aksi-





yasında heyva, nar, badam, alça, xurma və ərik ağacları olmaqla, 2500 ədəd meyvə ağacları əkilmiş və suvarılmışdır.

Qeyd edək ki, ağacəkmə kampaniyası, hər həftənin şənbə günü olmaqla, növbəti ilin mart ayının sonuna qədər davam etdiriləcək.

# Naxçıvanla tanışlıq Yunanıstan səfirində xoş təəssüratlar yaradıb

***Naxçıvan Muxtar Respublikasında səfərdə olan Yunanıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolaos Kanellos bu qədim diyarın istehsal, təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub. AZƏRTAC xəbər verir ki, diplomat əvvəlcə müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.***





Daha sonra səfir Naxçıvan Dövlət Universitetinə gəlib. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali təhsil ocağının müasir elektron təhsil şəbəkəsi, elektron sənəd dövriyyəsi, İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi, elektron kataloq-kartoteka sisteminə malik müasir elektron kitabxanası haqqında qonağa məlumat verib.

Naxçıvan Biznes Mərkəzi ilə tanışlıq zamanı bildirilib ki, hazırda burada muxtar respublikanın 96 istehsal və xidmət müəssisəsi tərəfindən istehsal olunan məhsullar nümayiş olunur. Bu gün muxtar respublikada 362 növdə, 1128 çeşiddə məhsul istehsal edilir. Həmçinin 344 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir.

“Naxçıvan” Universitetinə gələn səfirə universitetin rektoru, professor İsmayıl Əliyev məlumat verib ki, bu gün “Naxçıvan” Universitetinin beynəlxalq əlaqələri genişləndirilir. Dünyanın məşhur təhsil müəssisələrindən olan Almaniyanın Lüdviq Maksimillians Universiteti, son dövrlərdə isə Türkiyənin 9 ali təhsil ocağı, eləcə də Rumıniya, Çexiya və Latviya universitetləri ilə əlaqələr yaradılıb, bununla da universitetin əməkdaşlıq etdiyi ali məktəblərin sayı 51-ə çatıb.

Yunanıstan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Naxçıvan şəhərinin ən hündür məkanında inşa edilən Dövlət Bayrağı Meydanı və Muzeyində olub. Bildirilib ki, buradakı bayraq dirəyinin hündürlüyü 57 metr, bayrağın uzunluğu 20, eni isə 10 metrdir. Bayraq dirəyinin pyedestalının altında Bayraq Muzeyi yerləşir. Səkkizguşəli ulduz formasında olan muzey binası eyni quruluşa malik sütunlarla əhatələnib.

Bəhruz Kəngərli Muzeyi ilə tanışlıq da diplomatda xoş təəssüratlar yaradıb. Məlumat verilib ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il mayın 22-də imzaladığı Sərəncamına əsasən yaradılıb. 2002-ci il iyun ayının 18-də ümummilli lider Heydər Əliyevin iştirakı ilə muzeyin açılışı olub. Muzeyin fondunda, ümumilikdə, minə yaxın eksponat mühafizə olunur. Bunlardan 366-sı ekspozisiyada sərgilənir.

Qonaq Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin fəaliyyət göstərdiyi bina ilə də tanış olub. Bildirilib ki, bina 2013-cü ildə istifadəyə verilib. Burada yerləşən Bəhruz Kəngərli adına Sərgi Salonunda müxtəlif səpkili tədbirlər keçirilir, naxçıvanlı rəssamların fərdi sərgiləri təşkil olunur.

Nikolaos Kanellos Naxçıvan Dövlət Xalça Muzeyi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyətinin “Badamlı” zavodu, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi, Naxçıvan Günəş Elektrik Stansiyası, Naxçıvan Avtomobil Zavodu və Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olub.

Yunanıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolaos Kanellosun Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

TƏRS BAXIŞ

# ADP sədri AXCP sədrini "ağ yuyub, qara sərdi"



**Sərdar Cəlaloğlu:** *"Gəl, sənin adını qoyaq "müxalifət" Əli..."*

***AXCP sədri Əli Kərimli yalnız "Milli Şura"da olanları və AXCP üzvlərini "əsl müxalifətçi" olduqları iddiasını növbəti dəfə gündəmə gətirib. Lakin cəbhəçi sədrin köhnəlmiş və yararsız iddiası bu dəfə də siyasi gündəmdə maraq doğurmayıb. Üstəlik ona qarşı ilk ittihamı ADP sədri Sərdar Cəlaloğlu irəli sürüb. Belə ki, Ə.Kərimlinin anormal iddiasından bəhs edən S.Cəlaloğluya görə, AXCP sədri müxalifətçiliyə "sənət" kimi baxır. "Tutaq ki, müxalifət sənsən. Gəl, sənin adını qoyaq "müxalifət". Əli Kərimli yox, Müxalifət Əli deyək"-deyə ironik tərzdə münasibət bildirən ADP sədri, hesab edir ki, müxalifət partiyalarının hər biri bərabərdir və burada bənzər iddiaların irəli sürülməsi yersizdir.***

## ADP sədri: "Şəxsən mən "müxalifət mənəm" adı uğrunda mübarizə aparmıram"

S.Cəlaloğlu Ə.Kərimlinin iddiasının kökündən yanlış olduğunu deyərək, eyham vurub ki, bu gün onun yanında olanlar uzağı bir neçə nəfərdir və "həqiqi müxalifət" olduğunu demək düşərgənin də bir neçə nəfərdən ibarət olduğunu göstərir. O, həmçinin, əlavə edib ki, hakimiyyətə müxalifət yiyələnmir və onu xalq dəstəklədiyi halda, hakimiyyətə gələ bilər: "Bu baxımdan, Ə.Kərimli həm də özünü xalqdan təcrid etmiş bir qondarma siyasətçidir. Bu o deməkdir ki, müxalifət 3-4 nəfərdən ibarətdir. Halbuki bu, belə deyil. Hakimiyyətə xalq gətirir, müxalifət özü-özünü hakimiyyətə gətirə bilməz. Şəxsən mən "müxalifət mənəm" adı uğrunda mübarizə aparmıram."

Maraqlıdır ki, ADP sədri AXCP sədrinin iddiasına qrammatik cəhətdən də münasibət bildirib və deyib ki, müxalifətçilik bir isim deyil, sifətdir: "...Ə.Kərimli özünü o qədər "müxalifətəm" deməyə alışdırıb ki, bütün hallarda özünə "müxalifətəm" deyəcək. Müxalifətçiliyə sənət kimi baxırlar. Müxalifətçilik hakimiyyətə qarşı mövqe tutmaqdır".

## Əli Kərimlinin "müxalifətçiliyi" saxta profillərlə "like" yığmaqdan ibarətdir

S.Cəlaloğlunun Ə.Kərimli haqqındakı ittihamlarında bir çox haqlı məqamlar yer alıb. Misal üçün, AXCP sədri bu iddiasına görə, Müsavat və ona dəstək göstərməyən sair partiyalarla uzun illərdir düşməncilik edir. Yəni o, müxalif düşərgəni təmsil edən bütün siyasi qüvvələrlə münasibətlərini və əməkdaşlığını da müxalifətçiliyə olan iddiasına görə dayandırıb. Əbəs deyil ki, zaman-zaman müxalifətin birliyi kimi qurulmuş müxtəlif siyasi bloklar da Ə.Kərimlinin bu ambisiyasının qurbanına çevrilərək, parçalanaraq məhv olublar. Həmçinin, bu gün Ə.Kərimlinin "müxalifətçiliyi" saxta profillərlə "like" yığmaqdan ibarətdir. Maraqlısı da budur ki, Ə.Kərimli bu gülünc vasitəylə ölkənin "ana müxalifəti" olduğunu iddia edir.

Çox şübhəsiz ki, Ə.Kərimlinin sosial şəbəkələrdə paylaşdığı hər paylaşımının öz qiyməti var. Yəni sifarişlə "status" paylaşır. Bununla da, sübut etməyə çalışır ki, müxalifətçi özüdür. Ancaq o öz iddiasında nə qədər çox qalarsa, özünü daha çox rüsvay edəcək. Hər halda, təkcə ADP sədri Cəlaloğlunun onun haqqında dediyi fikirləri bəs edir ki, Ə.Kərimlinin kim olduğunu görəsən.

**RÖVŞƏN**

## Fransa portalı fransız tələbələrə ADA Universitetində təhsil almaq imkanları barədə məlumat verib

Fransanın "Mantes Actu" portalında fransız tələbələrə ADA Universitetində təhsil almaq imkanları haqqında məlumat verilib. Portalda yayılan yazıda fransız tələbələrin 20 faizdən çoxunun xaricdə təhsil almağa üstünlük verdiyi, Bakının onlar üçün yeni istiqamət olduğu qeyd edilir. Həmçinin ADA Universitetinin internet saytında (www.ada.edu.az) qeydiyyatdan keçməyin yolları barədə məlumat verilir. Portal ölkəmizdə səfərdə olmuş fransız nümayəndə heyətinin Azərbaycan-Fransa Universitetində tələbə və müəllim heyəti ilə görüşünə də toxunub.

## Bu ilin 11 ayında 573 nəfər Azərbaycan vətəndaşlığına qəbul edilib

Bu ilin 11 ayı ərzində 38020 nəfərə müvəqqəti, 2752 nəfərə daimi yaşama icazələri verilib. 378-i vətəndaşlığı olmayan şəxs olmaqla 573 nəfər Azərbaycan vətəndaşlığına qəbul edilib. Üç nəfər ərizəçiyə, ailə üzvləri ilə birlikdə 8 nəfərə qaçqın statusu verilib.

AZƏRTAC xəbər verir ki, bunu Dövl?t Miqrasiya Xidm?ti (DMX) r?isinin müavini, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri P?rviz Musayev Beyn?lxalq Miqrant Günün? h?sr edilmiş t?dbirdə deyib. P.Musayev bildirib ki, Azərbaycan hökuməti miqrantların hüquqlarının qorunması istiqamətində iş aparır. Qeyd edilib ki, 67 şəxs qaçqın statusu ilə Dövlət Miqrasiya Xidmətində qeydiyyatındadır. Onlardan 44 nəfər ərizəçi, 23 nəfər isə ərizəçinin ailə üzvləridir. On min nəfərdən çox əcnəbinin könüllü öz ölkələrinə qayıtmaları təmin edilib.

# Müsavatda təlatümlər yaşanır

***Müsavat partiyası son vaxtlar böhran içindədir desək, yanılmarıq. Xeyli müddətdir ki, rəhbərliyin partiya vəsiqələrini satması məsələsi gündəmi zəbt etdiyi məlumdur. Lakin bunu partiyanın divan üzvü Alya Yaqublunun öz facebook səhifəsində yazması, Elman Fəttahın istefa verməsi, başqan Arif Hacılının Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırılması Müsavatın işlərinin heç də xoş getmədiyindən xəbər verir.***

Partiya rəhbərliyində təmsil olunan birinə qarşı, divan üzvü A.Yaqublunun "biletsatan" ittihamı ilə çıxış etməsi, təşkilat daxilində ciddi intriqaların olduğunu göstərir. A.Yaqublu mətbuata açıqlamasında, fikrinin yozulmasına narazılıq ifadə etsə də, partiya daxilində cərəyan edənlərdən diqqəti yayındırmaq, artıq mümkünsüzdür. A.Yaqublu fikirlərini ört-basdır etməyə çalışdığı bir vaxtda, E.Fəttahın başqan müavinliyindən istefa verdiyi xəbərinin yayılması və istefasına səbəb kimi də, partiyanın idarəçiliyində fikir ayrılığının olduğunu vurğulaması Müsavatın iç üzünü ortaya qoydu. E.Fəttahın istefası ilə bağlı verdiyi açıqlamasında T.Yaqublu da partiya daxilində fikir ayrılığını təsdiq edir. E.Fəttahın onun "Milli Şura"da olmasını istəmədiyini vurğulayan T.Yaqublu, bu istefanın onunla bağlı olmadığını bildirərək, başqan müavininin istefasını fikir ayrılığı ilə izah edir.

Bəlli olur ki, "Milli Şura" ilə əməkdaşlıq Müsavat daxilində heç də qəbuledilən deyil. Nə başqan, nə müavinlər, nə də divan üzvləri Yaqublunun timsalında hər hansı müsavatçının AXCP sədri ilə, onun qondarma "şura"sı ilə əməkdaşlığını həzm edə bilmir. Müsavatdaxili dartışmanın, söz-söhbətin səbəbini axtaranda da, hansı daşı qaldırsan, altından ya Kərimli çıxır, ya da onun "şura"sı. Təbii ki, bu səbəbdən də, müsavatçıların AXCP sədrinin adına, onun rəhbərliyi ilə təşkil olunan quruma qarşı antipatiyası başa düşüləndir. Çünki başqan və müavinləri yaxşı başa düşürlər ki, Ə.Kərimlinin hədəfi Müsavatı parçalamaqdır. Müxalifət lideri kimi yalnız özünü sırımağa, xarici havadarlardan, Azərbaycan əleyhinə fəaliyyət göstərən qüvvələrdən siyasi dividend qazanmağa, ayrılmış vəsaitləri öz əlində cəmləşdirməyə çalışan Ə.Kərimlinin siması, sözsüz ki, müsavatçılara da bəllidir və bu səbəbdən də, AXCP sədrinin adının hallanması onlarda qıcıq doğurur. Məhz buna görə də, Yaqublunun timsalında hər kim "Milli Şura" ilə, əməkdaşlıq edirsə, müsavatçıların rəqibinə çevrilir.

Müsavatın sonuncu qurultayından sonra partiyada baş verənlər, partiya rəhbərliyinin onlardan narazı qüvvələri Müsavatdan qovması, qarşı tərəfi bərk qıcıqlandırıb. Gedənlər hər məqam düşdükcə, qalanlara nəsihət verməyə çalışır. "Demokratiya və Rifah Hərəkatı"nın sədri Qubad İbadoğlu müsahibəsində, uzun illər üzvü olduğu Müsavat partiyasının üzvlərinə üz tutaraq, onları partiyadaxili demokratiyanın qurulmasına çağırış edirsə, bu, partiya daxilində qeyri-demokratik əhval-ruhiyyədən xəbər verir. Eyni zamanda, bu, o deməkdir ki, belə bir anti-demokratik əhval-ruhiyyənin olduğundan, onun bütün partiyadaşları da xəbərdardır və bu, heç də sirr deyil.

## Müsavat daxilində bir-birini əvəz edən problemlər bitmək bilmir

Başqan müavininin istefasının bir ay əvvələ təsadüf etməsinə baxmayaraq, məlumat mətbuata indi sızırsa, A.Hacılı divan üzvü Razim Əmiraslanlını bir aydan sonra özünə müavin təyin edirsə və onun hansı məsələlər üzrə müavin təyin olunduğunu açıqlamırsa, "Müsavatda boş müavin yerləri var, vəssalam" deyə fikir çaşqınlığı yaratmağa çalışırsa, deməli, partiya daxilində çox ciddi qarşıdurmalar baş verir. Bəlkə də biçarə Hacılının hələ müavin postları tam dolmayıb və hələ özünə çoxlu sayda müavin təyin etmək arzusundadır. Görəsən, bir başqanın neçə müavini olmalıdır, yaxud bu başqan nə qədər vacib bir işlə məşğul olur və işi nə qədər çoxdur ki, dalbadal müavin təyin edir, yenə də bəs eləmir?

Göründüyü kimi, partiya daxilində qalmaqallarla, hərc-mərcliklə yanaşı, bir-birini əvəz edən problemlər də bitmək bilmir. Görünən odur ki, nə partiyadaxili qaydalar tənzimlənmir, demokratiyanı bayraq etsələr də, nə demokratiyadan söhbət gedə bilməz, nə başqan başqanlığının öhdəsindən gəlir, nə də müavinlər. Yəqin elə buna görə də, biçarə Hacılı müavin təyinatına start verib ki, bəlkə təyin olunanlardan hansısa öz işini layiqincə yerinə yetirə bildi. Müavin yerinin hələ də boş olduğunu deyirsə, deməli, başqan hələ də özünə layiqli birini tapa bilməyib. Təbii ki, siyasi müstəvidə heç bir kompetensiyaya malik olmayan bir qurum üçün belə daxili çəkişmələrdən, yerdəyişmə oyunu oynamaqdan başqa fəaliyyət sahəsi qalmır. Ona görə də, Müsavat partiyası və onun timsalında digər dağıdıcı müxalif qurumları daim daxili çəkişmələrə və bir-biri ilə didişmələrə məhkumdur. Çünki birləşə və sivil fəaliyyət sərgiləyə bilməyən, nəticədə, milli maraqlar üçün əməli fəaliyyətlə məşğul ola bilməyən qurumun xalqın dəstəyinə ümid bəsləməsi də mümkünsüzdür.

***İnam HACIYEV***

## Bu il dünyada 97 jurnalist həlak olub



İlin əvvəlindən bəri 28 ölkədə ümumilikdə 97 jurnalist həlak olub. Bu barədə məlumat "Press Emblem Campaign" (PEC) qeyri-hökumət təşkilatının dekabrın 18-də Cenevrədə dərc olunan illik məruzəsində əksini tapıb.

AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, təşkilat dünya ictimaiyyətini münaqişə zonalarında jurnalistlərin təhlükəsizliyinin təmin olunması üçün tədbirlər görməyə çağırıb. Həmçinin qeyd edilir ki, 2017-ci ildə qətllərin sayı ötən illə müqayisədə (144) xeyli azalıb. PEC-in məlumatına əsasən, 2008-ci ildən indiyədək ilk dəfədir ki, bir il ərzində həlak olan KİV əməkdaşlarının sayı 100 nəfərdən azdır. Ümumilikdə isə son 10 ildə dünyada 1197 jurnalist öldürülüb.

KİV nümayəndələri üçün ən təhlükəli ölkələrin siyahısında birinci yerdə bu il 14 jurnalistin qətlə yetirildiyi Meksika qərarlaşıb. Siyahıda ilk beşliyə, həmçinin İraq (9 jurnalist), Əfqanıstan, Hindistan və Pakistan (hər birində 8 jurnalist) daxildir. Bu beş ölkədə ümumilikdə 45 jurnalist zorakılıq qurbanı olub. Filippin və Suriya (hər birində 6 jurnalist) siyahıda 6-cı və 7-ci yerləri bölüşür. Onların ardınca Somali (5 jurnalist) və Honduras (4 jurnalist) gəlir. 2011-2017-ci illərdə Suriyada 108, Meksikada 72, İraqda isə 71 jurnalist həlak olub.

# Separatçıların Hollandiya sərgüzəştləri

*Yaxud anti-Azərbaycan dairələri yenidən "iş" başında*

**Azərbaycana qarşı separatçılıq əməlləri ilə tanınan bir qrup şəxsin - Arif və Leyla Yunusların, keçmiş "KQB" kadrı, Rusiyanın qaranlıq siyasi dairələrinin əsas üzvlərindən sayılan və özünü "hüquq müdafiəçisi" adlandıran Svetlana Qannuşkinanın, Ermənistanın xüsusi xidmət orqanlarına işləyən Ataxan Əbilovun, separatçı "Talış Mədəniyyət Mərkəzi"nin və "Tolışi sədo" qəzetinin həbsxanada ölmüş rəhbəri Novruzəli Məmmədovun arvadı Məryəm Məmmədovanın Hollandiyada keçirdikləri toplantı haqqında bir sıra təfərrüatlar məlum olub.**

## Ataxan Əbilov kimi erməni xüsusi xidmət orqanlarına "verbovka" edib?

Təfərrüatlardan biri və ən əsası isə budur ki, həmin toplantının təşkilatçısı, bilavasitə ölkəmizin maraqlarına qarşı çıxış edən, Rusiyadakı erməni lobbisinin əsas əlaltılarından olan S.Qannuşkinadır. Onu da, qeyd edək ki, toplantının fotosunu separatçı A.Əbilov öz "facebook" səhifəsində paylaşıb. Bu, həmin A.Əbilovdur ki, 2016-cı ildə Azərbaycandan Ermənistana qaçan digər separatçı Şahin Mirzəyevin düşmən ölkədə sığınacaq tapması üçün Avropanın bir sıra anti-Azərbaycan dairələri üzərindən danışıqlar aparıb, nəticədə, Ş.Mirzəyevin erməni xüsusi xidmət orqanları tərəfindən "verbovka" olunmasına nail olub.

## Separatçıların və xəyanətkarların bir araya gəlməsində sabiq "KQB" agenti və erməni lobbisinin təlimatçısı Svetlana Qannuşkinanın əsas rol alması təsadüfi sayıla bilməz

Belə bir vəziyyətdə Arif və Leyla Yunusların da sözügedən toplantıya qatılmalarından isə, əslində, təəccüblənməyə dəyməz. Daha dəqiq desək, bu iki ər-arvadın damarlarında zatən erməni qanı axır və bu səbəbdən, onların Azərbaycan əleyhinə toplantılara qatılmaları gözlənilən idi. Yeri gəlmişkən, o da sirr deyil ki, L.Yunus hazırda özünü Avropanın bir sıra ermənipərəst dairələri ilə əlaqəli göstərsə də, onun Rusiyanın qaranlıq siyasi dairələri ilə əməkdaşlığının tarixi onun müdafiə nazirliyində işlədiyi dövrlərə gedib çıxır. Hələ o zamanlar, erməni kəşfiyyatına ötürülən gizli hərbi məlumatları L.Yunus Rusiya vasitəsilə reallaşdırırdı. Bu barədə kifayət qədər faktlar mövcuddur.

## Leyla və Arif Yunuslar Azərbaycan-Avropa qurumları arasında qalmaqallar yaratmağa və həmin münasibətləri pozmağa yönəldilmiş çirkin planlarını işə salmağa başlayıblar

Ona görə də separatçıların və xəyanətkarların bir araya gəlməsində sabiq "KQB" agenti S.Qannuşkinanın əsas rol alması təsadüfi sayıla bilməz. Çünki L.Yunusla S.Qannuşkina çoxdanın siyasi "cici-bacılarıdırlar" və Qannuşkina özünü "hüquq müdafiəçisi" kimi göstərsə də, əsas işi Rusiyanın Avropada fəaliyyət göstərən təsisatlarının tapşırıqlarını həyata keçirməkdən ibarətdir. Xüsusilə, Azərbaycanın Avropa Şurası, Avropa Parlamenti və Avropa İttifaqı və s. təsisatları ilə münasibətlərinin isti olduğu bir vaxtlarda S.Qannuşkina L.Yunus və onun kimi tipləri əlü alaraq, Azərbaycan-Avropa qurumları arasında qalmaqallar yaratmağa, həmin münasibətləri pozmaq istiqamətində çirkin planlarını işə salmağa başlayır.

Məhz bu baxımdan, istər Avropa təsisatları, istərsə də Rusiya ilə münasibətlər fonunda Azərbaycan böyük üstünlüklər əldə edib, dövlət maraqlarını ən yüksək səviyyədə tətbiq edərkən, keçmiş "KQB" agenti və erməni lobbisinin əsas adamı olan Qannuşkina dərhal fəaliyyətə keçir. Ona görə də, Hollandiyada keçirilən separatçı görüş də bu amillərə hesablanıb desək, heç də yanılmarıq. Əbəs yerə deyil ki, Avropanın aparıcı təsisatlarında ölkəmizə qarşı layihələrin əsas təklif vereni kimi S.Qannuşkina birbaşa əsas müəllif olaraq göstərilir.

## Zamanı çatanda bu ünsürlərin, bilavasitə Azərbaycan qanunları və xalqı qarşısında cavab verməli olacaqlarını da indidən demək olar

Xatırlatmaq yerinə düşərdi ki, hazırda Azərbaycan dövləti ilə Avropa İttifaqı arasında kifayət qədər əhəmiyyətli məqamlara əsaslanan və ölkəmizin maraqlarına cavab verən yeni əməkdaşlıq sazişi imzalanacaq. Bu baxımdan, hazırda Hollandiyada keçirilən separatçı görüşün arxasında dayanan əsas çirkin ideyalardan biri sazişin imzalanmasına əngəl yaratmaqdan ibarətdir. Daha doğrusu, Rusiyanın qaranlıq siyasi dairələrinin əsas fiqurlarından olan Qannuşkina Avropadakı separatçıların əli ilə ölkəmizə qarşı növbəti təxribatları reallaşdırmaq, xüsusilə, 2018-ci ildə Azərbaycanda prezident seçkilərinin keçiriləcəyini bildikləri üçün bu ətrafda planlar cızır. Bu planların cızılmasında Arif və Leyla Yunusların, A.Əbilovun, M.Məmmədovanın və s. xainlərin də cəlb olunması da, söz yox ki, əbəs deyil.

Belə olan vəziyyətdə, artıq bu kimi ünsürlərin pozucu təxribatlarının qarşısının alınmasının tam zamanıdır. Söz yox ki, onların bu fəaliyyətləri nəticəsiz qalacaq. Çünki Azərbaycan dövlətinin və ölkə rəhbərliyinin qətiyyətli iradəsi, yürüdülən müdrik siyasət daha öncələr də bu cür təxribatçıların qarşısını zamanında almağı bacarıb. Hətta zamanı çatanda, bu ünsürlərin, bilavasitə Azərbaycan qanunları və xalqı qarşısında cavab verməli olacaqlarını da indidən demək olar.

**R.RƏSULOV**

## İraq: Yeni neft boru kəməri Türkiyə üzərindən keçəcək



İnşa ediləcək yeni neft boru kəməri Türkiyədən keçərək digər qonşu ölkələrə uzanacaq və Türkiyə bu nəqldə əhəmiyyətli rol oynayacaq. AZƏRTAC xəbər verir ki, bu barədə İraqın neft naziri Jabar al-Luaibi deyib. Nazir qeyd edib ki, yeni neft boru kəməri bütövlükdə Türkiyəni qət edəcək: "Bununla da artıq neftin bahalı və təhlükəli olan tankerlə daşınması dövrü geridə qalacaq".

Qeyd edək ki, hazırda İraqdan Türkiyəyə uzanan 2 paralel boru kəməri var. Son bir ildə bu boru kəmərlərindən Türkiyəyə 280 milyon barrel xam neft daşınıb. Həmin həcmin 65 faizi Türkiyə üzərindən dünya bazarına göndərilib. Bu boru kəmərlərinin ümumi ötürücülük gücü 553 milyon barrel təşkil edir.

## Flippin: fırtına qurbanlarının sayı 30 nəfəri ötüb

Flippində fırtınanın doğurduğu daşqınlar və torpaq sürüşmələri nəticəsində ölənlərin sayı 31 nəfərə çatıb, 49 nəfər itkin düşmüş sayılır. Ölü sayının artacağı istisna olunmur. AZƏRTAC xəbər verir ki, "Philippine Star" nəşrinin yaydığı məlumata görə, fırtınanın təsirinə 270 mindən çox insan məruz qalıb. Ölkədə 44 min nəfər üçün nəzərdə tutulan 608 təxliyə məntəqəsi açılıb.

Çimərlik istirahəti ilə məşhur Borakay adasında 1200 turist təcrid olunmuş vəziyyətdə qalıb. Yerli hakimiyyət orqanlarının məlumatına əsasən, ada ərazisinin 90 faizini su basıb. Bu səbəbdən Borakay aeroportunda bütün uçuşlar dayandırılıb. Arxipelaqda bir çox bərə reysləri də ləğv olunub, turist qayıqlarının dənizə çıxması qadağan olunub. Bu da çoxsaylı adalar arasında hərəkəti çətinləşdirir.

SİYASİ RAKURS

# Müsavat partiyası növbəti parçalanmaya doğru

*Partiyadaxili xaos davam edir*



**Müsavat partiyası demək olar ki, növbəti parçalanmanın astanasındadır. Belə ki, Elman Fəttahın başqa müavinliyindən vediyi səsli-küylü istefasının ardınca, siyasi təşkilatın aparıcı funksionerlərindən hesab edilən, divan üzvü olan Alya Yaqublunun başqan Arif Hacılını və onun yaxınlarını partiya vəsiqəsini satmaqda, eləcə də, saxta "siyasi mühacir" arayışları verməkdə ittiham etməsi proqnozun reallaşacağını əminliklə deməyə əsas verir. Xüsusilə, növbəti başqan seçimləri ərəfəsində A.Yaqublunun sözügedən məsələni qabartması digər nüansları önə çıxarmağa başlayıb...**

## Divan üzvü Alya Yaqublu başqan müavini Tofiq Yaqublunu niyə müdafiə edir?

Misal üçün, bu haqda ötən yazılarımızın birində qeyd etmişdik ki, hazırda A.Yaqublunun əmisi oğlu, başqan müavini Tofiq Yaqublu Müsavatın qatı düşməni hesab edilən "Milli Şura"da təmsil olunan yeganə üzvüdür və o, təmsil olunduğu partiyadan daha çox AXCP kuluarlarında görünür. Ona görə də, hazırda A.Hacılı klanı İsa Qəmbərin göstərişi ilə T.Yaqubluya qarşı kampaniyaya start verib. Bu baxımdan, A.Yaqublu istər-istəməz, öz qohumunun tərəfini saxlamaq məqsədi ilə elə T.Yaqublunun verdiyi faktlar əsasında əks-hücuma keçib və sosial şəbəkə vasitəsi ilə A.Hacılı-İ.Qəmbər cütlüyünə tərəf ardıcıl ittihamlar yağdırmağa başlayıb.

Artıq o da agah olub ki, başqan müavinliyindən istefa vermiş E.Fəttah A.Yaqubuya saxta partiya biletlərinin və arayışların verilməsi ətrafında bəzi kompromatları ötürüb. Bu, necə deyərlər, onun qisas almasının tərkib hissəsi anlaşıla bilər. Misal üçün, Müsavatın icra aparatının rəhbəri Gülağa Aslanlı E.Fəttahın istefası ilə bağlı danışmaq istəmədiyini deməklə, həqiqətdə partiya daxilində kəskin fikir ayrılıqlarının və ziddiyyətlərin olduğunu dolayısı ilə etiraf etdi.

## Başqan müavinliyindən istefa vermiş Elman Fəttah Tofiq Yaqublu qruplaşmasında...

Başqa tərəfdən, E.Fəttahın T.Yaqublu-A.Yaqublu qruplaşmasına daxil olmasını onun istefası ilə bağlı T.Yaqublunun göstərdiyi münasibəti olub. Əbəs yerə deyil ki, Müsavatın "Milli Şura"dakı yeganə təmsilçisi T.Yaqublu E.Fəttahın istefa verməsini doğru yol hesab edib. Üstəlik E.Fəttahın onun qruplaşmasında yer alması, öz təbirincə "pərdələyib" də. SİTAT: "Çünki partiyada fikir ayrılığı var. Düzdür, Elman Fəttah mənim "Milli Şura"da olmağımı istəmir. Ancaq bu istefa mənimlə bağlı deyil, onun dediyi fikir ayrılığı ilə əlaqədardır".

Başqa tərəfdən, E.Fəttahın hələ ötən ay istefa ərizəsi yazdığı bəlli olub. Lakin onun istefasının dekabrın 13-də mətbuata sızması, digər maraqlı məqamları açığa çıxarıb.

İstefa xəbəri çıxmamışdan bir gün öncə, Müsavat başqanı A.Hacılı partiyanın təşkilat şöbəsinin sədri, divan üzvü Razim Əmiraslanlını özünə müavin təyin etmiş, lakin onun hansı məsələlər üzrə müavin təyin olunduğu açıqlanmamışdı. E.Fəttahın müavinlikdən gedişindən sonra R.Əmiraslanlının onun yerinə təyin olunduğu deyilsə də, bu fikirlərə qarşı A.Hacılı fərqli mövqe sərgiləyərək, guya partiyada müavin yerlərinin boş olduğunu "əsas" gətirib. Ona görə də, R.Əmiraslanlını özünə müavin təyin etdiyini deyib. Ancaq fakt budur ki, R.Əmiraslanlı, bilavasitə E.Fəttahın yerinə gətirilib. Beləliklə, Müsavat partiyasında yaşanan qalmaqalların heç də səbəbsiz yerə baş qaldırdığını demək olmaz. Faktlar göz önündədir və parçalanma amilinin sürətlə gerçəkləşməsi fonunda növbəti istefaları gözləməyə dəyər. E.Fəttahın ardınca digər başqan müavini T.Yaqublunun, divan üzvü A.Yaqublunun da istefaları gündəmdədir. Hər halda, A.Hacılı və onun klanı bu həqiqəti nə qədər gizli saxlamağa cəhdlər göstərsə də, həqiqət bütün hallarda bu gizliliyi yarıb, özünü büruzə verəcək.

**Rövşən NURƏDDİNOĞLU**

# Azərbaycan xalqının "yelləncək", "yumurta döyüşü", "gözbağlayıca", "gizlənqaç", "baharbənd" və "noxud çuxuru" oyunları

***Azərbaycanın bütün bölgələrində, xüsusilə, qız-gəlinlərin sevimli oyunlarından biri də yelləncək oyun-mahnılarıdır. Bu məqsədlə, oyunun ifaçıları bir-bir, iki-iki yelləncəklərə qalxıb yellənər, ətrafdakılar isə əl çalır, şənlənir, çalıbçağırır və rəqs edə-edə yellənən qızın ayağına çubuqla vurub oxuyurdular.***

Tədqiqatçı Tofiq Babayev yazır: "Yelləncəyə minib yellənənlər Qarabağda "Uçuncaq", Lənkəran bölgəsində "Küf", "Hələçin", Bakıda "Quyhaquy", Qubada "Havaçağ", Şəkidə "Sulançıx", "Yörtməc", Zəngilanda "Sarımçax", Gəncədə "Səkmən" və s. adlarla məlumdur. Bir də görürdün, yazın vurğunu olan uşaqlar qarğıdan hərəsi bir "at" düzəldib, o tərəfə-bu tərəfə çaparaq, Günəşi səsləyirlər: "Gün buralara, kölgə dağlara; gün buralara, kölgə dağlara".

Maraqlı oyunlardan biri də "Gözbağlayıca" adlanır. Bu oyunda da iki dəstə olur. Başçılar seçilir, növbəynən oyunçuların gözünü bağlayıb, meydana buraxırlar. Kimsə çıraqda daş çıqqıldadır, səs çıxardıb qaçır. Gözübağlı uşaq başlayır bu səsin sorağına, qarşısına düşüb axtarmağa. Böyük əziyyətnən daşı daşa vuranı tutur.Ələ keçən oyunçunun gözünü bağlayırlar, bir başqası da başlayır oyun daşlarını çıqqıllatmağa, "Gözbağlayıca" oyunu bu sayaq davam edir.

Hazırda Azərbaycanın bir sıra bölgələrində gənclər və uşaqlar arasında yaşayan oyunlardan biri də sözlü-nəğməli "Qələndər, ay Qələndər"dir (və yaxud "Yengəla ha, yengəla"). Oyun aparıcısı söz, əl hərəkəti və him-cimlə bir quşun ayrı-ayrı nişanələrini sadalayır, o biriləri isə bir yerdə "Qələndər, ay qələndər" (və ya "Yengəla ha, yengəla") deyirlər. Nişanələr deyildikdən sonra aparıcı əlindəki turnanı yoldaşına ötürərdi. Beləliklə, bir neçə uşaq müxtəlif quş adı deyərdilər. Axırda kim tapsa, başçı əmr edərdi ki, vur çatlasın. Həmin uşaq turna ilə qaçanları qovardı. Kim vura bilsə idi, o uşağa bu və ya digər yüngül cəza verərdilər. Həmin uşaq özünü başçının yanına yetirsə idi, onu döyməkdən əl çəkərdilər. Bu oyunun da Azərbaycanın ayrı-ayrı bölgələrində müxtəlif adları ("Quşum-quşum", "Durna-durna", "Səməndər, ay Səməndər", "Yalanpalan", "Bir quşum var bu boyda" və s.) məlum idi.

Novruz bayramının çərşənbələrindən başlamış oğlan uşaqları və cavanlar yumurta döyüşdürürlər. Döyüşdürmədə həm çiy (bişməmiş), həm də bişmiş (bişmiş yumurtalar Günəşin, odun, yaşıllığın simvolu olmaqla sarı, qırmızı, yaşıl rənglərlə ala-bəzək bəzədilir) yumurtalardan istifadə olunur. Döyüşmədən əvvəl tərəflərin razılığı ilə yumurtalar dəyişdirilərək, dişə vurulub bərk-boşluğu yoxlanılır. Bu "yumurtanı dadma" adlanır".

Uşaqların daha çox sevdiyi həmin oyun olduqca əyləncəli bir səhnəyə çevrilir. Döyüşmə ilə bağlı belə bir söyləmə də vardır. Xüsusi olaraq, seçilmiş, bir müddət duzda saxlanmış yumurtalar sivri və yumru tərəfləri olmaq üzrə döyüşdürülür. Bunun üçün 20-25 yumurtanı qatara düzür, bir nəfər o başda, digəri isə bu başda döyüşdürülür. Kimin yumurtası çox sındırılsa, o da sınıqları yır-yığış eləyir, qalib qəhrəmanlar kimi sevinir. Bu oyunda hiyləylə məharət qalib gəlir: "Sən tut, mən vurum", "Bunu mən tuturam, onu sən tut", "Gəl yumurtaları dəyişib vuraq", "Gəl dadışaq", "Yox, sənin yumurtan ziyillidir" və s.

T.Babayevin fikrincə, yumurtaya "əy qoyma" vardır. Yəni əgər kiminsə yumurtası bərk hesab edilirsə, deyirlər gərək əy qoyasan, yəni onun yumurtasının başı deyil, nisbətən yan tərəfi döyüşdürülür. Məlumdur ki, yumurta künə-baş adlanır. Odur ki, bərk yumurtanın künəsi ilə boş yumurtanın başı döyüşdürülür. Çox vaxt çil toyuğun yumurtası qalib gələrdi.

Novruz bayramında meydanlarda məzhəkə səhnələri qurulur, müxtəlif oyun və əyləncə səhnəcikləri (tamaşaları) icra olunur. Təlim almış ayı və it ilə, ilanı özünə ram edib, onları oynatmaqla əyləncə və oyun göstərirlər. Bu zaman oyunçu hoppanıb-düşür, him-cim və gülməli hərəkətlərlə ətrafdakıları əyləndirir. Xoruz savaşdırmaq, it boğuşdurmaq, qoç döyüşdürmək əyləncələri də geniş yayılmışdır.

Uşaqlarda sayıqlıq və cəldlik aşılayan oyunlardan biri də "Gizlənqaç"dır (xalq arasında "Gizlənpaç", "Gildirimparç" və s. adları da mövcuddur). Hər bir uşaq iki barmağını dairəvi surətdə yerə düzdükdən sonra bir nəfər seçilmiş başçı gözü yumdurmaq üçün püşk rolunu oynayan şeiri oxuyur.

Nəğmə-saydakı son söz kimin barmağının üstünə düşsə, o barmağını çəkir və bu, axırda uşaqlardan birinin barmağı qalanadək davam edir. Həmin uşaq iki əli ilə gözlərini bağlayır və digərləri gizlənirlər. Müəyyən işarədən sonra uşaq gözlərini açır və axtarır. Gizlənənlər əvvəlcədən müəyyən edilmiş yerə - mərəyə gəlib əlini vurmağa çalışmalıdır. Əgər oyunçulardan hər biri göz bağlanan yeri tapıb gözünü bağlayandan tez qaçıb mərəyə əl vurarsa qalib, uduzan isə göz bağlamalı olur. Uşaqların əylənməsi üçün keçirilən "Gizlənqaç", "Qaçdı-tutdu" kimi şən və maraqlı oyunlar bu gün də məktəblərdə və uşaq bağçalarında sevincə səbəb olur.

T.Babayev yazır: "Novruz bayramı ilə bağlı oyun və əyləncələrin əksəriyyəti torpaqla - təbiətlə, əkinçiliklə, ağac, gül-çiçək əkməklə əlaqədardır, xalq arasında axır çərşənbə axşamı "ağac əkmə günü" adlanır. Bu gün hər bir ailə üzvünün adına ağac əkilir.

Uşaqların və gənclərin oyun və əyləncə fəaliyyətində, obyektiv olaraq, iki çox mühüm amil çulğaşır. Bir tərəfdən praktik fəaliyyətə qoşulur, fiziki inkişaf edir, müstəqil iş görməyə alışır, digər tərəfdən, onlar bu fəaliyyətdən mənəvi və estetik məmnunluq duyur və ətraf mühitə dair bilikləri dərinləşir. Bütün bunlar, son nəticə olaraq, bütövlükdə, şəxsiyyətin tərbiyəsinə kömək edir.

Novruz bayramı günlərində xalq arasında yayılan maraqlı məişət oyunlarından biri də "Fincanfincan" oyunu idi. H.Sarabski yazır ki, Abşeronda geniş yayılan bu oyun bəzən məhəllələrarası evlərdə, bir çox hallarda isə çayxanalarda icra edilirdi. İki dəstədən ibarət olan iştirakçıların sayına görə (10 və ya 15 nəfər) məcməiyə (siniyə) düzülən üzüqoylu fincanlardan birinin içində üzük gizlədirdilər. Bu dəstə o biri dəstəyə onu tapmağı təklif edərdi. Üzük tapılmadıqda, iştirakçı "cərimə" olunardı. "Oyuna yığılan cavanlar çay içər, şorqoğalı yeyər, qəlyan çəkərdilər... Oyun zamanı bəzən "Rüstəmnamə"dən və "İsgəndərnamə"dən nağıl deyərdilər, dərviş və aşıq oxutdurardılar. Çox zaman oyun gecə yarısına qədər davam edərdi". Bu oyun Azərbaycanın ayrı-ayrı bölgələrində "Üzük-üzük", "Üzük gizlətdi" və "Gül oyunu" adları ilə də məlum olmuşdur".

"Baharbənd" oyununu Qarabağ bölgəsində daha çox oynayırlar. Elə ki yaz gəldi, Günəş qan qaynatdı, onda igidlər baharbənddə bəxtlərini sınayırlar. Atlı atın çaparağında çuxasını, arxalığını və çarıqlarını çıxarıb yola atır. Müəyyən məsafədən sonra atı geri döndərib atın çilovunu yığmadan çaparaq növbəylə çarıqlarını, arxalığını və çuxasını yerdən qaldırıb geyirdi. Bu əməliyyatı tez yerinə yetirən atlı qalib sayılırdı.

Oyunların müəyyən bir qismi xalqın tarixinin, həyatının və xarakterinin istiqaməti ilə bağlı olmuşdur. "Günəş oyunu"nda şər qüvvələr Günəşin qarşısını tutur, insanlar əl-ələ verərək, şər qüvvələri qovur, bundan sonra Günəş çıxır, həyat yenidən canlanmağa başlayır. Oyunda məqsəd insanların birləşib şər qüvvələrə qarşı elliklə mübarizə aparmalarını göstərməkdir. "Ana, məni qurda vermə" oyununda isə, yadelli işğalçılara qarşı mübarizə məsələsi irəli sürülür. "Çalağan çardağı" oyunu düşmən qalalarının, "Artırma" oyunu isə qala divarlarının fəth edilməsini göstərir.

T.Babayev qeyd edir ki, Azərbaycan xalq oyunlarından biri də "Noxud çuxuru" adlanır. Bu maraqlı oyun ev şəraitində keçirilir. Böyük bir sini təmiz və narın qumla doldurub, üzəri hamarlanır. Sininin dövrəsi boyunca bir-birinin yanında, qumun içərisində kiçik çuxurlar düzəldilir. Hər çuxura yeddi ədəd noxud salınır.

Oyunda üç və üçdən artıq oyunçu iştirak edə bilər. Oyunçulardan biri payına düşən çuxurlardan birinin noxudlarını saat əqrəbi istiqaməti üzrə qonşu çuxurları birbir salır. Növbə ilə ikinci və üçüncü oyunçu da bunu təkrar edir. Kimin axırıncı noxudu oyunçuların çuxurundakı tək sayda (1, 3, 5) olan noxudların üzərinə düşərsə, o oyunu udmuş hesab olunur. Bu qayda ilə oyun davam edir.

Oyun və əyləncələr minillərdənminillərə, nəsillərdən-nəsillərə çataraq, xalq arasında yaşadığı kimi, şifahi xalq ədəbiyyatı nümunələrində, xüsusilə, nağıllarda, dastanlarda, əfsanələrdə də yaşayıb, zəmanəmizədək gəlib çatmışdır. "Kitabi-Dədə Qorqud" dastanının boylarında ozanların el-el, oba-oba gəzərək söz qoşması, nağıl və dastan söyləməsi ilə yanaşı, Dədə Qorqud yurdunun igidlərinin cıdır təşkil etməsi, meydanda at oynatması, qılınc oynatması, ox atıb yarışması, oxla üzük vurması, çovkən oynaması, pəhləvanların, daşqaldıranların məharətlərinin nümayiş etdirilməsi və digər əyləncələrlə tanış oluruq.

Qədim oyunlardan olan "Çövkən" çevik, cəld, dözümlü, mərd igidlər hazırlanması işində müstəsna rol oynamış və Yaxın Şərq ölkələrində, eyni zamanda Azərbaycanda ən məşhur oyuna çevrilmişdir. Dahi Nizami "Xosrov və Şirin" poemasında bu oyunun təsvirinə geniş yer vermişdir.

Hazırda Azərbaycanın bir sıra bölgələrində gənclər və uşaqlar arasında yaşayan oyunlardan biri də sözlü-nəğməli "Qələndər, ay Qələndər"dir (və yaxud "Yengəla ha, yengəla"). Oyun aparıcısı söz, əl hərəkəti və him-cimlə bir quşun ayrı-ayrı nişanələrini sadalayır, o biriləri isə bir yerdə "Qələndər, ay qələndər" (və ya "Yengəla ha, yengəla") deyirlər. Nişanələr deyildikdən sonra aparıcı əlindəki turnanı yoldaşına ötürərdi. Beləliklə, bir neçə uşaq müxtəlif quş adı deyərdilər.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Fotoşəkillərin keyfiyyətini yüksəldən yeni proqram hazırlanıb



"Google" korporasiyası "Android" əməliyyat sistemi üçün fotoşəkillərin keyfiyyətini yüksəldən xüsusi proqram hazırlayıb. AZƏRTAC dni24.com saytına istinadla xəbər verir ki, "Android" sistemi ilə işləyən smartfonların istehsalçıları qurğunun kamerasının işini tənzimləmək ehtiyacı duyurlar. Bəzən fotoçəkilişin keyfiyyəti ürəkaçan olmur. Şirkətin mütəxəssisləri bu nasazlığı aradan qaldırmaq üçün "Android 7.0 Nougat" əsasında işləyən bütün qurğulara uyğun gələn "Google.Camera" proqramını hazırlayıblar. Proqramın işini "Android"in daha erkən versiyaları ilə uyğunlaşdırmaq mümkün deyil. Proqram xüsusi alqoritmlərdən istifadə etməklə təsvirin ötürülməsi zamanı şəkilləri daha aydın və keyfiyyətli edir.

## Kanadalı milyarder və həyat yoldaşı kəndirlə boğularaq öldürülüb



Kanadalı milyarder Bernard Şermanı və həyat yoldaşı Hanini kəndirlə boğaraq öldürüblər. AZƏRTAC Euronews telekanalına istinadla xəbər verir ki, bu nəticə polisin rəsmi məlumatında yer alıb. Dekabrın 16-da Şerman və həyat yoldaşının Toronto şəhərindəki evlərinin zirzəmisində ölmüş vəziyyətdə tapılması ilə bağlı informasiya yayılmışdı. Hadisə yerinə ilkin baxış zamanı, evə zorla daxilolma izlərinə rast gəlinməsə də, polis "Apotex" əczaçılıq kompaniyasının banisinin ölümündə şübhəli məqamlar olduğunu bildirmişdi.

Xatırladaq ki, Bernard Şermanın 75, həyat yoldaşının isə 70 yaşı vardı. Şerman "Apotex" korporasiyasının əsasını 1974-cü ildə qoyub. Kompaniyanın məhsulları dünyanın 115 ölkəsinə ixrac edilir. Kanadanın ən varlı insanları arasında 15-ci yerdə qərarlaşan Şermanın varidatı üç milyard dollardan artıq qiymətləndirilir. Kompaniyanın əməkdaşları onu ölkə və cəmiyyət üçün çox işlər görmüş gözəl insan kimi səciyyələndirirlər.

## Alimlər smartfonların orqanizmə mənfi təsirləri haqqında xəbərdarlıq ediblər

ABŞ-ın Səhiyyə Nazirliyi mobil telefonlar və smartfonların orqanizmə mənfi təsirləri haqqında yeni məlumat dərc edib. Elektromaqnit şüalanmasının sızmasını aşkarlayan tədqiqatçılar istifadəçilərə bununla bağlı xəbərdarlıq etməyə qərar veriblər. Nazirlik qurğunu bədəndən mümkün qədər uzaqda saxlamağı tövsiyə edir.

AZƏRTAC hi-tech.mail.ru saytına istinadla xəbər verir ki, səhiyyə mütəxəssisləri mobil telefonlardan ayrılan enerjinin uzunmüddətli təsirindən ehtiyatlı olmaq üçün ciddi səbəblərin olduğunu bildiriblər. Həkimlər telefonu cibdə, uzun müddət daşınarkən qulağa yaxın, gecələr çarpayının yanında saxlamamağı məsləhət görürlər. Həmçinin hərəkətdə olan avtomobil, avtobus və ya qatarda telefonun adi vaxtda olduğundan daha çox enerji yaydığı müəyyən edilib. Ekspertlər insanların mobil telefonlardan istifadə riskini düzgün qiymətləndirmədiklərini bildiriblər. Çünki istehsalçılar mobil qurğuların sağlamlığa mənfi təsirləri ilə bağlı lazımi testləri keçirmirlər, çox vaxt onların nəticələrini gizlədirlər.


## ELAN

Dövlət İdarəçilik Akademiyasının III kurs tələbəsi Məmmədzadə Əli-Heydər Maarif oğlunun tələbi bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun "Filologiya" fiakültəsinin I kurs tələbəsi Təhməzova Nərmin Amil qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.


## "Real Madrid" klublararası dünya çempionatının qalibi olub




"Real Madrid" komandası FIFA-nın təşkil etdiyi klublararası dünya çempionatının qalibi olub. AZƏRTAC xəbər verir ki, Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu-Dabidəki "Zayed Sports City" stadionunda oynanılan final qarşılaşmasında UEFA Çempionlar Liqasının sonuncu qalibi olan "Real" Cənubi Amerika Futbol Konfederasiyasının (CONMEBOL) Libertadores kubokunun sahibi "Qremio" (Braziliya) ilə üz-üzə gəlib. Qarşılıqlı hücumlar şəraitində keçən oyunda yeganə qolu "Real"ın portuqaliyalı ulduz futbolçusu Kriştiano Ronaldo vurub. Ulduz futbolçu matçın 53-cü dəqiqəsində cərimə zərbəsini dəqiq yerinə yetirərək oyunun taleyini həll edib. Bu, "Real"ın üçüncü çempionluğudur. Bundan əvvəl 2014-cü və 2016-cı illərdə də turnirin qalibi olan madridlilər bu yarışda ən çox çempion olan əzəli rəqibləri "Barselona"nın rekordunu təkrarlayıblar. "Real" bu kuboku ardıcıl iki dəfə əldə edən ilk komanda kimi tarixə düşüb. Turnirin ən məhsuldar futbolçusu 7 qolla Kriştiano Ronaldo olub.

## Azərbaycan cüdoçusu beynəlxalq turnirdə bürünc medal qazanıb



Rusiyanın Sankt-Peterburq şəhərində cüdo üzrə "World Masters" turnirinə yekun vurulub. AZƏRTAC xəbər verir ki, turnirin sonuncu günü Azərbaycan milli komandası aktivinə daha bir medal yazdırıb. Yüz kiloqram çəki dərəcəsində mübarizə aparan Elxan Məmmədov üçüncü yer uğrunda mübarizədə ev sahibi Kiril Denisova qalib gələrək bürünc medala sahib olub. Xatırladaq ki, yarışın ilk günü Hidayət Heydərov da (73 kq) bürünc medal qazanmışdı. Qeyd edək ki, 46 ölkədən 212 idmançının mübarizə apardığı beynəlxalq turnirdə Azərbaycan milli komandası yeddi cüdoçu ilə təmsil olunub.

## Messi "Barsa"da 165 oyunda qol ötürməsi verib



İspaniya La Liqasının 16-cı turunda "Deportivo" ilə keçirilən oyun "Barselona"nın hücumçusu Lionel Messi üçün əlamətdar olub. SİA-nın məlumatına görə, argentinalı futbolçsu 4:0 hesabı ilə qalib gəldikləri oyunda ilk qolun ötürməsini verib. Bununla da Messi Kataloniya klubundakı məhsuldar ötürmələrinin sayını 200-ə çatdırıb. O, "Barsa"da meydana çıxdığı 607 oyunun 165-də qol ötürməsi verib.

## Kaka karyerasını bitirib



Braziliya millisinin sabiq üzvü Kaka futbolçu karyerasını başa vurub. SİA-nın məlumatına görə, 35 yaşlı futbolçu sosial şəbəkə hesabından etdiyi açıqlamada bunları qeyd edib: "Xəyal etdiyimdən daha artıq idi. Təşəkkürlər. İndi yeni macəraların vaxtıdır". Qeyd edək ki, Kaka karyerası ərzində "San Paolo", "Real", "Milan" kimi komandalarda çıxış edib. O, son olaraq ABŞ-ın "Orlando Siti" klubunda oynayıb.

## "Sevilya" ilk dəfə olaraq təqvim ili ərzində ev oyunlarında bir dəfə də uduzmayıb

"Sevilya" futbol klubu İspaniya çempionatının 16-cı turunda doğma divarlar arasında "Levante" ilə oyundan sülhlə (0:0) ayrılıb. Əndəlüs klubu öz tarixində ilk dəfə olaraq təqvim ili ərzində ev oyunlarında bir dəfə də uduzmayıb. "Ramon Santes Pisxuan" stadionunda keçirilən 26 oyunda "Sevilya" 17 qələbə qazanıb, 9 görüşdə heç-heçə edib. Hazırda "Sevilya" turnir cədvəlində beşinci yerdədir. Komanda UFEA Çempionlar Liqasının səkkizdəbir finalında "Mançester Yunayted", İspaniya Kubokunun səkkizdəbir finalında isə "Kadis" ilə görüşəcək.

## "Qalatasaray" baş məşqçisini qovub

Türkiyə Super Liqasında baş məşqçi istefası gerçəkləşib. SİA-nın məlumatına görə, "Qalatasaray" İqor Tudorla yolları ayırıb. Xorvatiyalı mütəxəssisin qovulmasına səbəb İstanbul nəhənginin son zamanlar uğursuz nəticələr əldə etməsidir. "Sarı-qırmızılar" 39 yaşlı çalışdırıcıya 400 min avro təzminat ödəyəcək. Qeyd edək ki, 16 turdan sonra aktivində 32 xal olan "Qalatasaray" Super Liqada 2-ci pillədə yer alıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**